

Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident Fərman imzaladı

## Fondun büdcəsi təsdiq edildi



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 fevral 2025-ci il, çərşənbə axşamı
№ 024 (6852)
Qiyməti 60 qəpik



# İslam dünyasının böyük rəğbəti

## Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti və təşəbbüsləri İslam həmrəyliyinin möhkəmlənməsinə xidmət edir

# Azərbaycanın hədəfi "yüksək gəlirli ölkə" statusu əldə etməkdir

Bax səh. 2

## İcma: Ermənilərin davranışı açıq provokasiyadır

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

Bax səh. 5

## Türkiyə ilə Azərbaycan miqrasiya sahəsində əməkdaşlıq edəcək

Bax səh. 4

## 2025-ci ildə ölkəmizdə inflyasiya sabit qalacaq

Bax səh. 2

## Aİ-yə üzvlük Ermənistana nə vəd edir?

Bax səh. 7

## İrəvan silahlandırılır

### Fransa sülhə mane olur

Bax səh. 4

## Azərbaycanın qeyri-neft sektoru dünya bazarına inteqrasiya edilir

Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə baş iqtisadçısı İvaylo İzvorski Azərbaycanın qlobal bazarlara inteqrasiyasının artdığını, enerji məhsulları ilə yanaşı, qeyri-neft məhsullarının həcmini və çeşidlərini artırdığını bildirib. O, qeyd edib ki, Azərbaycan artıq enerji sektoru sayəsində dünya bazarında möhkəm mövqe tutub: "Ölkə tanınmış qlobal oyunçudur, Avropa İttifaqına təbii qaz ixracını artırır, qabaqcıl qazma texnologiyalarına, inkişaf etmiş infrastruktura və güclü emal müəssisələrinə malikdir. Bəs digər sektorları bu səviyyəyə necə çatdırmaq olar? Onların qlobal bazara inteqrasiyasını necə təmin etmək mümkündür? Bu sahələrdə neft-qaz sektoru ilə müqayisə edilə bilən uğura necə nail olunmalıdır? Əminəm ki, bunun açarı dünya iqtisadiyyatında daha fəal iştiraka bağlıdır. Əgər qonşu ölkələrlə inteqrasiya məhduddursa, qlobal bazara çıxış və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir".

Dünya Bankının region...

Bax səh. 3



# "Rəqəmsal məktəb"... Gözləntilər

Bax səh. 8

# 54 ölkədən biri...

## “Orta gəlirli ölkə” qrupunda yer alan Azərbaycanın hədəfi “yüksək gəlirli ölkə” statusu əldə etməkdir

***Bakıda Dünya Bankının “Dünyanın İnkişafı haqqında” hesabatının təqdimat mərasimi keçirilib***

Bakıda Dünya Bankının (DB) “Dünyanın İnkişafı haqqında” (World Development Report - WDR) hesabatının təqdimat mərasimi keçirilib. Hesabatın nəticələri və onun əsasında regional təhlil hesabatın əsas müəllifləri və Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə baş iqtisadçısı tərəfindən təqdim edilib. Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays bildirib ki, Hesabat Dünya Bankının apardığı kompleks araşdırmanın məcmusudur. WDR xülasəsi 1978-ci ildən bəri Dünya Bankının nəşr etdiyi illik hesabatdır. Hər bir WDR iqtisadi inkişafın müəyyən bir aspekti haqqında dərin təhlili təqdim edir. Hesabatlar Bankın inkişaf haqqında baxışlara ən tanınmış töhfəsidir. 2024-cü il üzrə “Dünya İnkişafı haqqında” hesabat ölkələrin bir çox indikatorlar üzrə sosial-iqtisadi inkişaf durumunu əks etdirir. Həmin metodoloji yanaşmaya əsasən, illik adambaşına düşən ümumi daxili məhsulunun (ÜDM) həcmi 8000 dollar ekvivalentində olan ölkələr Dünya Bankının “orta gəlirli” dövlətlər qrupunda yer alır. DB-nin təsnifatına əsasən, 1990-cı illərdən bəri yalnız 34 orta gəlirli iqtisadiyyat bu uğura nail olub.

# İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi təsdiq olunub

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərcləri 2 milyard 941 milyon 690 min manat məbləğində təsdiq edilib. Həmin xərclərin maliyyələşmə mənbələri icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin gəlirləri 2 milyard 571 milyon 690 min manat, icbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitlərindən (qalığından) 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 370 milyon manatdır.

Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

## Azərbaycan 30 ildə adambaşına düşən gəliri 60 dəfə artırıb

Roland Prays bildirib ki, Azərbaycanda 30 ildə adambaşına düşən gəlir 60 dəfə artıb. 1993-cü ildə Azərbaycanda adambaşına düşən gəlir 110 dollar idisə, hazırda bu rəqəm 6 min dolları ötüb. 2023-cü ildə Azərbaycan “orta gəlirli” iqtisadiyyata çevrilib və bu rəqəmi 60 dəfə artıraraq 6700 dollara çatdırıb. Azərbaycanda hazırda ÜDM adambaşına 8000 dollara yaxındır.

Mərasimdə çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, 30 il ərzində Azərbaycan müasir inkişaf etməkdə olan ölkəyə çevrilməyə müvəffəq olub. “Azərbaycan hazırda 54 orta gəlirli ölkələr sırasındadır. “Bu, qısa müddətdə çox əla nailiyyətdir. Bildiyiniz kimi, 90-cı illərdə ÜDM-in yarısından çoxu itirilmişdi. 1992-ci ildə Dünya Bankı ilə əməkdaşlığa başladıqdan sonra Azərbaycan çox ciddi transformasiyadan keçib. Dünya Bankı Azərbaycanın çox ciddi tərəfdaşı olub, o cümlədən səhiyyə, kənd təsərrüfatı sahələrində layihələrində həyata keçirilməsində çox yaxından iştirak edib. Dünya Bankı gələcəkdə innovasiyaların dəstəklənməsində bizim əsas tərəfdaşlarımızdan biri olaraq qalacaq”.

Şahmar Mövsümov qeyd edib ki, Azərbaycan iqtisadi diversifikasiya və innovasiya yönümlü siyasət sayəsində yüksək gəlirli ölkələr sırasına keçməyə hazırdır. Bunun üçün iqtisadiyyatın şaxələndirilməsi əsas şərtdir. Azərbaycan innovasiyalara yönəlmək üçün tələb olunan infrastruktur və bazaya malikdir: “Biz bu potensial əsasında sürətli inkişaf edə bilərik. Hazırda dünya ciddi çağırışlarla üz-üzədir, lakin Azərbaycandakı güclü rəhbərlik və Dünya Bankı kimi tərəfdaşlarla əməkdaşlıq bizə irəliyə doğru sürətli addımlar atmağa imkan verir. İnnovasiya uzunmüddətli iqtisadi artımın təmin edilməsi üçün strateji əhəmiyyət daşıyır. Bu baxımdan, startapların və sahibkarlığın dəstəklənməsi vacibdir”.



## Strateji valyuta ehtiyatları ÜDM-in 95 faizinə bərabərdir

Dünya Bankı ilə sıx əməkdaşlığın maliyyə-bank sektorunda mühüm nəticələr verdiyini diqqətə çatdıran Mərkəzi Bankın (MB) sədri Taleh Kazımov qeyd edib ki, Azərbaycan ötən illərdə sürətli iqtisadi inkişafa nail olub, son 20 ildə iqtisadiyyat təxminən 3,8 dəfə, o cümlədən qeyri-neft sektoru 3,7 dəfə böyüyüb, ümumi ixracımız və qeyri-neft ixracımız müvafiq olaraq 7,8 və 6,3 dəfə, iqtisadiyyatımıza investisiya qoyuluşu 4,4 dəfə artıb. Bu dövrdə maliyyə sektorunda yığım imkanları güclənib, ölkəmizin strateji valyuta ehtiyatları ümumi daxili məhsulun 95 faizinə bərabərdir.

MB sədri vurğulayıb ki, yeni mərhələdə inkişaf dinamikasını daha da irəlilətmək üçün xarici maliyyə təşkilatları, o cümlədən Dünya Bankı ilə əlaqələr də ön planda saxlanılacaq. MB makroiqtisadi sabitliyin qorunması, maliyyə inklüzivliyinin təmin edilməsi və bu istiqamətdə işləri davam etdirəcək və 2025-ci ildə pul siyasəti mexanizminin möhkəmləndirilməsi istiqamətində tədbir həyata keçirəcək. Cari ildə maliyyə alətlərinin şaxələndirilməsi və sayının artırılması, pul siyasəti mexanizminin möhkəmləndirilməsi istiqamətində də tədbirlər həyata keçiriləcək. Həmçinin uzunmüddətli perspektivdə bu tədbirlərin həyata keçirilməsi innovativ sahibkarlıq ekosisteminin yaradılması üçün çox böyük əhəmiyyət kəsb edir.

## “2025-2029-cu illər üçün yeni Ölkə ilə Tərəfdaşlıq Çərçivəsi”

MB sədri bildirib ki, maliyyə sektorunun “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”na əsasən, maliyyə alətlərinin diversifikasiyası və dayanıqlı maliyyələşmənin təşviqi yolu ilə ev təsərrüfatlarını və biznesləri maliyyələşdirilməsi davam etdiriləcək. Maliyyə sektoru maliyyənin əlçatanlığını və dərinliyini artırmaq üçün ənənəvi kanallardan rəqəmsal maliyyə vasitəçiliyinə keçməyə can atır. Bu, maliyyə inklüzivliyinə böyük təsir edib və edəcək. Ev təsərrüfatlarının, bizneslərin maliyyə savadlılığının və biliklərinin artırılması da əsas prioritetlərdən biri olacaq. Eləcə də bank sektorunun dayanıqlılığının gücləndirilməsi, sığorta, qiymətli kağızlar və ödəniş sektorlarının inkişafı maliyyə sektorunun iqtisadiyyatın maliyyələşdirilməsində artan rolunu dəstəkləyəcək. Yeni hədəflərə yüksək rəqabət üstünlüyünə malik iqtisadi sektorlara maliyyələşdirməni gücləndirmək və yönəltmək, innovasiyalara daxili və xarici investisiyaları dəstəkləmək kimi prioritetlər də daxildir. Mərkəzi Bank bu hədəflərə nail olmaq üçün müvafiq iqtisadi qurumlarla yanaşı, Dünya Bankı ilə də sıx əməkdaşlığı davam etdirəcək. Bu siyasətin əsas istiqamətləri isə DB ilə təsdiqlənmiş “2025-2029-cu illər üçün yeni Ölkə ilə Tərəfdaşlıq Çərçivəsi”ə əsasən, müəyyən edilmiş strateji prioritetlərə əsaslanacaq.






## Hədəf adambaşına düşən ÜDM-i 10 min dollara çatdırmaqdır

Azərbaycanın qarşısında duran strateji hədəf çağırışı DB-nin müəyyən etdiyi ən yüksək indikatora - “yüksək gəlirli ölkə”lər qrupunda yer almaqdır. İqtisadiyyat nazirinin müavini Səməd Beşirlinin sözlərinə görə, Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul (ÜDM) yüksək gəlirli ölkələrlə müqayisədə təxminən 40 faiz azdır. Hazırda ölkəmizdə bu göstərici 6-7 min dollar təşkil edir, “yüksək gəlirli” ölkələrdə isə bu rəqəm 10 min dollardır. Ona görə də fərqi azaltmaq üçün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində, o cümlədən həm mallar, həm də xidmətlər daxil olmaqla ticarət sektoruna stimullaşdırıcı tədbirlər görüləcək.

Azərbaycan həmin inkişaf statusuna çatmaq üçün qarşıdakı inkişaf planlarını DB ilə məsləhətləşmələr şəraitində həyata keçirəcək. Həmin mərhələyə yüksəlmək üçün isə, xaricdən texnologiyaların qəbul edilməsi və onların iqtisadiyyata yönəldilməsi əsas tələblərdən biri hesab edilir. Bu ssenarilər “yuxarı-orta gəlir”li ölkə səviyyəsini təmin etdikdən sonra yenidən sürətli inkişaf transformasiyası nəticəsində sonuncu - “yüksək gəlirli” şkalaya keçidi təmin edə bilər. Bu statusa nail olmaq üçünsə investisiya, infuziya və innovasiya üçbucağını təmin etmək və dayanıqlı texnologiya liderləri ilə rəqabətdə dayanmaq lazımdır.

**ELBRUS CƏFƏRLİ**

# İNG proqnozunu yenilədi

## 2025-ci ildə ölkəmizdə inflyasiya sabit qalacaq

Niderlandın ən böyük maliyyə-bank təsisatlarından olan “ING Group” region ölkələri ilə bağlı yenilənmiş inflyasiya proqnozunu açıqlayıb. Təşkilatın hesabatında Azərbaycanda 2025-ci il üçün orta illik inflyasiyanın 4,8 faiz, 2026-cı il üçün isə 4,7 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Bankın ehtimallarına əsasən, Azərbaycanda 2025-ci ilin birinci rübündə orta illik inflyasiya 5,4 faiz, ikinci rübdə 5,7 faiz, üçüncü və dördüncü rüblərdə isə 4 faiz təşkil edəcək. 2026-cı ilin son rübündə bu göstəricinin 5,6 faiz olacağı gözlənilir.

“ING Group” inflyasiya gözləntiləri Azərbaycan hökumətinin cari və növbəti illər üzrə fərz edilən inflyasiya çərçivəsinə uyğundur. İqtisadiyyat Nazirliyinin proqnozlarına görə, 2025-ci ildə illik inflyasiya 4,6 faiz, 2026-cı ildə isə 4 faiz səviyyəsində olacaq. Yaxud, Mərkəzi Bankın (MB) da yenilənmiş proqnozları “ING Group”un qiymət indeksi ehtimallarına uyğundur. MB-nin 2025-ci ilin yanvar ayında yenilənmiş proqnozuna görə, cari ildə inflyasiya 5,5 faiz, 2026-cı ildə isə 3,8 faiz təşkil edəcək.

“ING Group” hesab edir ki, ölkəmizdəki inflyasiya gözləntilərində cüzi artım tendensiyası Mərkəzi bankın pul-kredit siyasətində müəyyən dəyişikliklər etməsinə səbəb olacaq. Belə ki, ehtimallara görə, MB uçot dərəcəsini cari ilin mart ayında 0,25 faiz bəndi artıraraq 7,5 faizə çatdıracaq. Uçot dəhlizi sonrakı rüblərdə sabit qalacaq, 2026-cı ildə də eyni ssenari qorunub saxlanılacaq. Ümumilikdə, 2026-cı ilin üçüncü rübünə qədər uçot dərəcəsinin 7,5 faiz səviyyəsində saxlanılacağı gözlənilir, dördüncü rübdə isə pul siyasətində yenidən dəyişiklik olacağı fərz olunur. Qeyd edək ki, MB cari ilin 22 yanvar tarixində qəbul etdiyi qərara əsasən, uçot dərəcəsini 7,25 faiz səviyyəsində dəyişməz saxlayıb.

## Digər proqnozlar da nikbindir...

Bu rəqəmlər digər beynəlxalq iqtisadi institutların proqnozlarına çox yaxındır. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2025-ci ildə 3,9 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə qiymət indeksi cari ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarında isə inflyasiyanın 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz təşkil edəcəyi qeyd olunur. “Standard & Poor’s” beynəlxalq reytinq agentliyinin iyun ayında açıqladığı yeni sənəddə Azərbaycanda 2025-2027-ci illərdə orta illik inflyasiya gözləntilərinin 3-4,2 faiz olacağı bildirilir.




## Dünyada geosiyasi və geoiqtisadi risklər inflyasiya təzyiqi yaradır...

Ancaq hökumət birrəqəmli inflyasiya çərçivəsinə arxayın olmayaraq, qiymət indeksinə təsir edən daxili və xarici faktorları, o cümlədən anti-inflyasiya tədbirlərini prioritet kimi diqqətdə saxlayacaq. Mərkəzi Bankın bəyanatından da göründüyü ki, 2025-ci il ərzində hökumətin antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərinə uyğun olaraq, bir sıra iqtisadi alətlərdən istifadə olunacaq. MB bazarın olduqca əlverişliliyini, heç bir risk faktorlarının olmadığını nəzərə alaraq uçot dərəcəsini sabit saxlasa da, ehtiyatlılığı da əldən vermir. Belə ki, istehlak qiymətləri indeksinin müəyyənləşməsində daxili amillərlə yanaşı, xarici faktorun təsirləri xüsusi olaraq nəzarətdə saxlanılır. Çünki qlobal bazara tam arxayın olmaq olmaz, bölgədə geosiyasi mürəkkəb proseslər hələ də davam edir ki, bu risklər inflyasiyanı yenidən sürətləndirə bilər. Belə ki, xarici mühitin yüksək həssaslığı, dünyada geosiyasi və geoiqtisadi vəziyyətin daha da gərginləşməsi, beynəlxalq logistika zəncirlərinin pozulması, bir çox ölkələrdə inflyasiyanın hədəf səviyyələrindən yuxarıda qalması gözləntiləri, iqlim dəyişmələri səbəbindən temperaturun artması və digər mənfi xarici şoklar qiymətlərin əlavə artımına səbəb ola bilər.




Ona görə də, hökumət inflyasiya faktorlarını təhlil edərkən inzibati alətləri də yaddan çıxarmaq niyyətində deyil və antiinflyasiya tədbirləri əsas hədəf prioriteti kimi diqqətdə saxlanılacaq. İqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar yenə də işə koordinasiya ediləcək.

## “İNG Group”un iqtisadi artım proqnozu da ümidvericidir...

“ING Group” 2025-ci ildə qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozunda Azərbaycan iqtisadiyyatının sabit və inkişaf edən və iqtisadi artımın ümidverici olduğunu əks etdirən göstəricilər sırasında xarakterizə edib. Şirkətin tədqiqat qrupunun rəyinə görə, ölkəmizdə 2025-ci il üzrə iqtisadi artım proqnozunu 3,5 faiz nisbətində müəyyənləşdirib ki, bu da orta dünya göstəricisindən 0,5-1 faiz-bənd yüksəkdir.




“ING Group”un Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnoz göstəriciləri Azərbaycan hökumətinin cari və yaxın 3 illik inkişaf ssenarilərinə uyğundur. Hökumətin proqnozlarına əsasən, ÜDM real ifadədə 2,4 faiz artaraq 118,4 milyard 2,4 faiz, 2025-ci ildə 2,9 faiz, 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 3,6 faiz təşkil edəcək. Qeyri-neft ÜDM-i isə 2025-ci ildə 2,7 faiz, 2026-cı ildə 4,9 faiz, 2027-ci ildə isə 5 faizə bərabər olacaq.

**E.CƏFƏRLİ**

# İslam dünyasının böyük rəğbəti

## Heydər Əliyev Fondu "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alır

Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu ölkəmizin hüdudlarından kənarda da sosial və humanitar məzmunlu layihələr həyata keçirir. Xüsusilə də Fondun İslam dünyasını əhatə edən ölkələrdəki fəaliyyəti geniş əhatə dairəsinə malikdir. Ötən dövrdə Heydər Əliyev Fondu ilə İslam ölkələrinin təhsil, elm və mədəniyyət təşkilatı olan ICESCO arasında sıx əməkdaşlıq əlaqələri qurulub. Təhsil və sosial müdafiə sahəsində irimiqyaslı layihələri ilə tanınan Heydər Əliyev Fondu ICESCO və Həmdan bin Rəşid Al Məktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alır.

### Heydər Əliyev Fondu ilə İCESCO arasında genişlənən əlaqələr

Dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verən Azərbaycan 1991-ci ildən sıralarında 50-dən çox dövləti birləşdirən ICESCO-nun üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində ICESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə keyfiyyətcə yeni bir inkişaf mərhələsinə yüksəlib. Mehriban Əliyeva - təşkilatın bu yüksək adına layiq görülmüş ilk qadın ictimai xadimdir.

Mehriban xanım Əliyeva qurumun xoşməramlı səfiri seçildikdən sonra Azərbaycan - ICESCO əlaqələri davamlı olaraq inkişaf edir. Bu gün Azərbaycanın ICESCO ilə münasibətləri İslam dünyasına gözəl bir nümunədir. Bunun nəticəsidir ki, təşkilatın bir sıra mühüm tədbirləri məhz Bakıda keçirilib. Bu sırada "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfransı (1-2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə baş tutan "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forumu (10-11 iyun 2008-ci il), İslam ölkələrinin mədəniyyət və təhsil nazirlərinin konfranslarını, Dünya dini liderlərinin Bakı Sammitini (26-27 aprel 2010-cu il), Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarını və digərlərini xüsusilə qeyd edə bilərik. ICESCO üzrə Azərbaycan Milli Komissiyasının fəaliyyəti özünün geniş spektrini ilə fərqlənir.

Hər bir azərbaycanlı üçün çox əziz şəhər olan Şuşa 2024-cü ildə zəngin İslam mədəniyyətinin qovuşduğu bir məkan kimi diqqət mərkəzində olub. 2023-cü il sentyabrın 25-i və 26-da Qətər dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülüb. Konfrans iştirakçılarının yekdil qərarı ilə Qarabağımızın incisi Şuşa şəhəri bu şərəfli ada layiq görülüb. Ötən ilin may ayında şəhərin Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin iştirakı tədbiri xüsusilə rövnəqləndirib. Festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıblar.

Yeri gəmişkən, birinci dəfə deyil ki, Azərbaycan şəhəri İslam dünyasının mədəniyyət paytaxtı adını qazanıb. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərləri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilib.

Həmçinin ICESCO Azərbaycanın uğurlarının beynəlxalq miqyasda təbliğinə xüsusi önəm verir. Təşkilatın aylıq jurnalında Azərbaycanla əlaqələrə həmişə geniş yer ayrılır. Qurumun rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim A.İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilərək geniş oxucu auditoriyasına çatdırılıb.

HEYDƏR ƏLİYEV FONDU

### Geniş əhatə dairəsinə malik təhsil layihələri

Bəhs olunan mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Bu il yeddi ölkədən doqquz təhsil təşəbbüsü birincilik uğrunda mübarizə aparıb.

Heydər Əliyev Fondunun qeyd olunan istiqamətlərdə fəaliyyəti həqiqətən çox geniş əhatə dairəsinə malikdir. Fond tərəfindən ölkəmizdə təhsilin inkişafı daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə yeni-yeni layihələr reallaşdırılır. Təşəbbüslər isə bir qayda olaraq Fondun prezidenti Mehriban xanım Əliyevadan gəlir. Onun təşəbbüsü ilə 2005-ci ildən həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla icra olunur. Layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etməkdən, ölkə miqyasında müasir standartlara cavab verən təhsil komplekslərı yaratmaqdan, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdan, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdən ibarətdir. Layihə çərçivəsində indiyədək paytaxtda və regionlarda yüzlərlə məktəb binası inşa olunub və yaxud yenidən qurulub.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi də özünün humanist mahiyyəti ilə diqqəti çəkir. Layihə çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə hər il çanta və məktəb ləvazimatları hədiyyə edilir. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki təhsil ocaqlarına, həmçinin, Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də mütəmadi olaraq yeni dərslik və tədris ləvazimatları göndərilir. Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulub. Bunlardan əlavə, təhsilin birinci pilləsi sayılan məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması işləri də uğurla həyata keçirilir.

### Sivilizasiyalararası dialoqa verilən dəyərli töhfələr

Heydər Əliyev Fondu təkcə İslam dövlətlərində deyil, müsəlman dünyasından kənarda da məktəblərin tikintisi və bərpasını həyata keçirən "Təhsil və sosial müdafiə layihəsi"nə görə mükafata layiq görülüb. Məlumdur ki, hazırda dünyada bir sıra hallarda multikulturalizm inkar olunur və bu, çox pis nəticələrə səbəb olur. Belə bir şəraitdə Azərbaycan özünün tarixdən gələn toleranlıq ənənələrinə sadiqlik göstərir və sivilizasiyalararası dialoqun möhkəmlənməsini hədəfləyən təşəbbüslər irəli sürür. Azərbaycan multikultural dəyərlərin təbliğ olunduğu müxtəlif beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən bir məkana çevrilib. Məhz Azərbaycanın təşəbbüsü əsasında Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyət və digər sahələrdə dialoqun əsasını təşkil edən "Bakı prosesi"nə uğurla start verilib.

ICESCO

### Gələcək əməkdaşlıq perspektivləri

Heydər Əliyev Fondu ilə ICESCO arasında əməkdaşlıq əlaqələri getdikcə genişlənir. Ötən ilin oktyabr ayında Fondun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun Mərakeşin Rabat şəhərində yerləşən qərargahında olub. Oktyabrın 14-də ICESCO - nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə görüşdə Heydər Əliyev Fondunun fəaliyyəti, Azərbaycan- ICESCO əməkdaşlığı, o cümlədən Fond ilə birgə layihələr müzakirə edilib.

Bütövlükdə, gələcək əməkdaşlığın perspektivləri kifayət qədər genişdir. 2024-cü il 11 may tarixində Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb. Memorandum mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutur. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin görüşündə ikitərəfli əməkdaşlıq, ICESCO ilə Fond arasında ötən müddət ərzində mövcud əlaqələr müzakirə edilib. Fondun prezidenti Mehriban Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi sivilizasiyaların yaxınlaşması, mədəniyyətlərarası dialoq üzrə fəaliyyəti və xidmətləri vurğulanıb.

*Mübariz ABDULLAYEV*

# Azərbaycanın qeyri-neft sektoru dünya bazarına inteqrasiya edilir

Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə baş iqtisadçısı İvaylo İzvorski Azərbaycanın qlobal bazarlara inteqrasiyasının artdığını, enerji məhsulları ilə yanaşı, qeyri-neft məhsullarının həcmini və çeşidlərini artırdığını bildirib. O, qeyd edib ki, Azərbaycan artıq enerji sektoru sayəsində dünya bazarında möhkəm mövqe tutub: "Ölkə tanınmış qlobal oyunçudur, Avropa İttifaqına təbii qaz ixracını artırır, qabaqcıl qazma texnologiyalarına, inkişaf etmiş infrastruktura və güclü emal müəssisələrinə malikdir. Bəs digər sektorları bu səviyyəyə necə çatdırmaq olar? Onların qlobal bazara inteqrasiyasını necə təmin etmək mümkündür? Bu sahələrdə neft-qaz sektoru ilə müqayisə edilə bilən uğura necə nail olunmalıdır? Əminəm ki, bunun açarı dünya iqtisadiyyatında daha fəal iştiraka bağlıdır. Əgər qonşu ölkələrlə inteqrasiya məhduddursa, qlobal bazara çıxış və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir".

Dünya Bankının region üzrə baş iqtisadçısı hesab edir ki, Azərbaycan hökumətinin iqtisadiyyatı şaxələndirmək planları yaxın müddətdə öz müsbət bəhrələrini daha böyük bazar payı ilə nümayiş etdirə bilər.

### Körfəz ölkələrinə ixracın artımı qeydə alınıb

Qeyd edək ki, 2024-cü ildə Azərbaycanın qeyri-neft ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz artaraq 3,4 milyard dollar təşkil edib. Bu, əvvəlki ilə nisbətən 100 milyon dollar artım deməkdir. Qeyri-neft ixracının strukturunda meyvə tərəvəzlər, plastik kütlə və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, şəkər məmulatları, pambıq lifi və ipliyi, alüminium, qara metallar və onlardan hazırlanan məmulatlar, alkoqollu və alkoqolsuz içkilər, bitki yağları, sement, mis filizləri və konsentratları, elektrik enerjisi, etilen, polipropilen və digər məhsullar əsas yer tutur.

Azərbaycanın qeyri-neft ixracında Rusiya Federasiyası 1,2 milyard dollarla birinci, Türkiyə 542,3 milyon dollarla ikinci, Gürcüstan 272,4 milyon dollarla üçüncü, İsveçrə 220,4 milyon dollarla dördüncü, ABŞ 134,7 milyon dollarla beşinci olub.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib.

Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.



Hazırda ixrac sahibkarlığına ixrac təşviqi sənədi üzrə maliyyə yardımı göstərilir, kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geriödəmə dəstəkləri verilir. Bundan başqa, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclər dövlət büdcəsi hesabına ödənilir. Bu təşviqləri artırmaq üçün hazırda əlavə güzəşt alətlərinin tətbiqi üzrə işlər aparılır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına görə, bu motivasiyaedici tədbirlərdən biri kimi 2025-ci ildə logistik subsidiya mexanizminin tətbiqinə hazırlıq görülür. Yeni mexanizm ixracla məşğul olan sahibkarların sərhəd-keçid məntəqələrində asan tranzit sisteminin yaradılması, gömrük sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, logistika üzrə güzəştlərin verilməsi

### Ənənəvi bazarlardan yeni ixrac coğrafiyasına keçid...




ni və tarif səmərəliliyi üzrə təşviqlərin tətbiqini nəzərdə tutur.

Eyni zamanda, yeni və qeyri-ənənəvi bazarlara ixracı stimullaşdırmaq üçün müxtəlif təşviq mexanizmlərinin verilməsi gözlənilir. Ən mühüm güzəşt aləti isə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən biznesin xarici bazarlara çıxışında dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi, onların ixrac fəaliyyəti üzrə logistik xərclərinin tam şəkildə qarşılanmasıdır. Nəticədə bu addım azad ərazilərdə çalışan biznes subyektlərinin xərclərinin azalmasına və qlobal bazarlara çıxışını xeyli asanlaşdıracaq.

### Hədəf 4 milyard dollar...

"Milli ixrac strategiyası"na əsasən, ortamüddətli dövrə dair strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına düşən həcminin 200 dollardan 450 dollara çatdırılması hədəflənib. Qeyri-neft ixracını illik 13-15 faiz artırmaqla həmin hədəfə çatmaq mümkündür. Həmin hədəflərə çatmaq üçün yeni sənəd- "Milli ixrac strategiyası" hazırlanıb. Sənəd 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir.

Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını yaxın 2 ildə 4 milyard dollara çatdırmaq planlaşdırılır. Sonrakı illərdə bu rəqəmin 5 milyarda qədər çatdırılması nəzərdə tutulur.

*ELBRUS*

# İrəvan silahlandırılır

## Fransa sülhə mane olur

Sülh müqaviləsinin imzalanması Cənubi Qafqaz üçün yeni inkişaf mərhələsi vəd edir. Yaranacaq yeni reallıq həm iqtisadi, həm siyasi, həm də hərbi stabillik deməkdir ki, bu da öz növbəsində yeni münasibətlər sisteminin qurulmasına yol açacaq. Başqa sözlə, Azərbaycan ilə Ermənistan arasında imzalanacaq sülh növbəti dövr üçün bölgənin əməkdaşlıq sxemini yeniləcəyək, əlaqələrin daha da genişlənməsinə yol açacaq və öz növbəsində bölgənin tranzit imkanlarından yararlanmağa çalışacaq qlobal diqqəti buraya yönəldəcək. Yəni, sülh özlüyündə inkişaf və tərəqqinin ilkin şərti də sayıla bilər. Buna real imkanlar da var. Bölgənin əsas problemlərindən biri - erməni separatizmi aradan qaldırılıb. Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Ötən il ikitərəfli təmaslarda müəyyən nəticələr əldə olunub - erməni işğalı altında olan Qazax rayonunun 4 kəndi azad edilib, 13 kilometrlik ərazidə sərhədlərin delimitasiyası və demarkasiyası aparılıb. Bu, yeni dövr üçün mühüm təməl belə sayıla bilər. Amma erməni məkri bu kimi mühüm bir mənzərənin reallaşmasına əngəl yaradır - İrəvanın yenidən silahlı təxribata əl atması sülh prosesini pozmağa yönələn hal kimi dəyərləndirilir, bu addım Ermənistanın hazırkı vəziyyətin davam etməsində maraqlı olduğunu ortaya qoyur.

### Ermənistan hazırlaşır...

Qeyd edildiyi kimi, İrəvan bütün destabil addımları bir kənara qoyaraq sülh üçün fəal iş aparmalı olduğu halda, yenidən silahlanma üçün can atır. Bu isə ölkənin Azərbaycana qarşı fəal müharibəyə hazırlaşdığını deməyə əsas verir. Yeri gəlmişkən, bu barədə “Caliber”in “YouTube” kanalında yayımlanan yeni süjetində bildirilir. Məlumata görə, bu hazırlıq planlı və məqsədyönlü şəkildə davam etdirilir. Bildirilir ki, Fransa Ermənistana veriləcək 26 ədəd “Bastion” zirehli transportyorundan 10 ədədinin istehsalını başa çatdırıb. Onların yaxın günlərdə Ermənistana tədarükü gözlənilir. Həmçinin Paris artıq İrəvana 12 ədəd “Sezar” artilleriya qurğusu ötürüb. İlin sonunadək isə daha 24 belə silah Ermənistana veriləcək.



### Yenə də eyni “koordinat”...

Bəli, yenə də Fransanın ortada manea kimi çıxış etməsi təəccübləndirici deyil. Azərbaycanla bağlanacaq sülh müqaviləsinin hələ də razılaşdırılmamış bəndlərinə nəzər saldıqda, başqa ölkələrin nümayəndələrinin bizim sərhədimizdə yerləşdirməməklə bağlı məsələyə Ermənistanın razılaşmaması bu məsələdə açar rolunu oynayır - Fransa Aİ missiyası adı altında bölgədə varlığını davam etdirməkdə israrlıdır.

Sülhün bağlanmaması üçün bütün gücünü ortaya qoyan Paris hətta İrəvanı açıq şəkildə silahlandırır. Bu proses 2024-cü ildə daha aktiv şəkildə aparılıb. Ötən ilin iyunun 17-də Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı iki tərəf arasında 36 ədəd “CAESAR” özüyeriyən artilleriya sistemlərinin alınmasına dair müqavilə imzalanıb. Ən son modifikasiyada alınacaq bu artilleriya sistemlərinin hər biri 5,5 milyon avro dəyərində qiymətləndirilir. Beləliklə, 36 artilleriya sistemi və həmin sistemlər üçün mütləq 155 mm-lik mərmilər əldə edən İrəvan azı 200 milyon avro vəsait xərcləyib.

Bu siyahıya Parisin həmin müqavilədən bir müddət öncə İrəvana satdığı və hər biri 14 milyon avro dəyərində olan 3 ədəd GM200 radar sistemi və 20 milyon dollara “Bastion” zirehli transportyorlarını əlavə etsək, tərəflərin hərbi-texniki əməkdaşlığının çox ciddi rəqəmlərə çatdığını söyləmək olar.

Fransa “Mistral” qısa mənzilli hava hücumundan müdafiə sistemlərinin gələcəkdə alınmasına dair Ermənistanla müqavilə imzaladığını nəzərə alsaq, tərəflər arasında silah müqavilələrinin 400 milyon avrodan çox olacağını söyləmək olar. Çünki “Mistral” sistemlərinin qiyməti Fransa tərəfindən məxfi saxlanılsa da, onun yüksək dəyərə malik olduğu, təkcə bu sistemlərin buraxdığı 1 raketin qiymətinin 300 min dollar təşkil etdiyi məlumdur. Paralel olaraq, Fransanın İrəvana gecəgörmə cihazları, müasir snayper tüfəngləri və s. tədarük etdiyini nəzərə almaq lazımdır.

Eyni zamanda, ötən ilin 24 iyulunda Hindistanın IADN agentliyi 2024-2025-ci maliyyə ilində Ermənistanın Hindistandan aldığı silahların həcminin 600 milyon dollara çatdığını açıqladı. Hindistan 2024-cü ildə Ermənistan aviasiyasının balansındakı Su-30SM təyyarələrini modernləşdirmək və təyyarələri öz istehsalı olan Astra BVRM və Smart Anti-Airfield Weapon (SAAW) kimi müasir raketlərlə təchiz etməyin müzakirəsini belə aparıb.

### Azərbaycan tamaşaçı rolunda olmayacaq!

Amma Ermənistan yenə də səhv edir - Azərbaycanın mövqeyi istər Ermənistan üçün, istərsə də onun havadarları üçün aydındır. Bu ölkənin müraciət etdiyi silahlı təxribatlar ona baha başa gələ bilər - onlar Azərbaycanın dəmir yumruğunu növbəti dəfə görə və dada bilərlər. Dövlətimiz hər zaman bəyan edib ki, Azərbaycan yeni müharibə istəmir. Bununla belə yarana biləcək hər hansı bir təhlükə və ya təxribatın cavabı da vaxtında və lazımi səviyyədə verilir. Prezident İlham Əliyev hər zaman bildirib ki, Ermənistanın genişmiqyaslı silahlanma kampaniyası bölgə üçün növbəti təhdid mənbəyidir. Əgər bu il bizim üçün ən narahatedici məqamı qeyd etsək, təbii ki, bu, Ermənistanın silahlanmasıdır: “Mən



dəfələrlə həm rəsmi bəyanatlarımda, həm Ermənistan tərəfi ilə apardığımız danışıqlar əsnasında onlara xəbərdarlıq etmişəm ki, bu təhlükəli yoldan çəkinsinlər. Onları təhrik edən və bu gün yenə də Azərbaycan üzərinə hücum etməyə vadar edən xarici dairələr, xarici ölkələr onların arxasında durmayacaq, sadəcə olaraq, dura bilməyəcək. Bizimlə bu bölgədə hərbi müstəvidə heç bir qüvvə rəqabət apara bilməz. Ona görə bir daha deyirəm, hələ ki, gec deyil, bu təhlükəli yoldan geri qayıtsınlar. Cənubi Qafqaz sülh, əmin-amanlıq, əməkdaşlıq bölgəsi olmalıdır. Ermənistanın genişmiqyaslı və sürətli silahlanması, öldürücü silahların tədarükü bu sülhü, mümkün olan sülhü poza bilər. Bir şeyi də qeyd etməliyəm, Azərbaycan, sadəcə olaraq, bu məsələ ilə bağlı tamaşaçı rolunda olmayacaq”.

*P.İSMAYILOV*



# Ərdoğan sazişi təsdiqlədi

## Türkiyə ilə Azərbaycan miqrasiya sahəsində əməkdaşlıq edəcək

Türkiyə Prezidenti Rəcəb Tayyib “Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş”i təsdiqləyib. Sənəd Azərbaycan və Türkiyə arasında 2024-cü il martın 6-da Ankarada imzalanıb. Bundan başqa, Rəcəb Tayyib Ərdoğan Türkiyə ilə Qabon arasında “Türkiyə Respublikası Hökuməti və Qabon Respublikası Hökuməti arasında Diplomatik Nümayəndəliklər üçün Torpaqların Mübadiləsi haqqında Protokol”u da təsdiqləyib.

Hər iki sənəd imzalandığı gündən qüvvəyə minib.

# Zatulin və Milonov “arzuolunmaz şəxs” siyahısına daxil edilib



Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Turizm komitəsinin sədrinin birinci müavini Nikolay Valuyevin Azərbaycan və xalqımız əleyhinə işlətdiyi təhqiramiz ifadələr, ölkəmizə qarşı təhdid xarakterli fikirləri tamamilə qəbuledilməzdir. AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Rusiya Federasiyasının Dövlət Dumasının deputatının Azərbaycan əleyhinə fikirləri və ona qarşı atılacaq addımlar ilə bağlı yerli medianın sualına cavabında söyləyib.

O, həmçinin deyib: “Qeyd edilən deputatın ölkəmiz əleyhinə fikirləri ilə bağlı onun adı Azərbaycan Respublikasına girişi qadağan edilmiş şəxslərin siyahısına daxil edilib və onun ölkəmizə girişinə qadağa qoyulub. Ümumilikdə, bildirmək istərdik ki, bu, Rusiya Dövlət Dumasının deputatlarının “arzuolunmaz şəxslər” siyahısına daxil edilməsi üzrə ilk hal deyil. Məsələn, bundan əvvəl, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı fəaliyyət göstərən Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının MDB ilə iş Komitəsinin birinci müavini Konstantin Zatulin və Ailənin müdafiəsi komitəsinin sədrinin müavini Vitaliy Milonov da Azərbaycanda “arzuolunmaz şəxs” kimi müvafiq siyahıya daxil edilib. Təəssüflə bildirmək istərdik ki, ölkəmizə qarşı fəaliyyət göstərən bütün bu deputatlar məhz Rusiyanın hakim partiyası olan “Vahid Rusiya” (Yedinaya Rossiya) partiyasının üzvləridir”.

A.Hacızadə bildirib ki, ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə, Azərbaycan xalqına qarşı fəaliyyət göstərən bu kimi şəxslərə qarşı ölkəmizin qanunvericiliyi çərçivəsində bundan sonra da müvafiq addımlar atılacaq.

# İcmadan Paşinyana cavab:

## “Qərbi Azərbaycan məsələsinin hərbi təhdid kimi təqdim edilməsi tamamilə qəbuledilməzdir”





Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə regionda sülhün əldə edilməsinə maraqlı olmadığını nümayiş etdirib. O, fevralın 10-da “Armenpress” xəbər agentliyində dərc olunmuş məqaləsində faktları və həqiqətləri təhrif etməklə bu mövqeyini ortaya qoyub. Paşinyan, məqalədə regional proseslərə və Qərbi Azərbaycan mövzusuna dair yanlış, əsassız və zərərli fikirlər səsləndirib.

**Baş nazirin əsassız iddiaları...**

Ölkəsinin silahlandırılmasına haqq qazandırmağa çalışan baş nazir iddia edib ki, guya Ermənistanın Azərbaycana qarşı hər hansı hərbi əməliyyat keçirmək planı, niyyəti və məqsədi yoxdur. Ancaq yaxın tarix sübut edir ki, Ermənistan silahlanma prosesindən məhz Azərbaycan torpaqlarını işğal etmək üçün istifadə edib. Ona görə də, gələcəkdə də silahlanmadan bu məqsəd üçün istifadə etməyəcəyinə heç bir təminat yoxdur.

Digər tərəfdən, nə qədər absurd olsa da, Paşinyan Ermənistanın təhlükəsizliyinə təhdidlərin Azərbaycanda formalaşdığını deyib. O iddia edib ki, Praqada əldə olunan razılaşmaların əksinə olaraq, Azərbaycan tərəfindən Ermənistanın ərazi bütövlüyünü şübhə altına alan bəyanatlar verilir. Buna “nümunə” olaraq “Qərbi Azərbaycan” mövzusunu göstərir. Paşinyanın fikrincə, guya Qərbi Azərbaycan İcmasının təsis sənədlərində Ermənistanın suveren ərazisinin təxminən 60 faizi “hazırda Ermənistan Respublikasının nəzarətində olan ərazilər” və ya “Ermənistan Respublikası” adlı siyasi-hüquqi vahidin nəzarətində olan ərazilər” adlanır.

**Ermənistan təcavüzkar keçmişini unutmamalıdır**

Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bəyanatda vurğulanıb ki, Qərbi Azərbaycan İcması Azərbaycan və Ermənistan arasında sülhün bərqərar edilməsi istiqamətində aparılan siyasi prosesləri dəstəkləyir: “Hesab edirik ki, iki dövlət arasında sülhün bərqərar olması və Qərbi azərbaycanlıların öz evlərinə qayıtması bir-birini tamamlayan məqsədlərdir. Sülh prosesinin 2020-ci il Vətən müharibəsindən sonra məhz Azərbaycan Respublikası hökumətinin təşəbbüsü ilə başlandığını qeyd edərək, Azərbaycan tərəfinin sülhpərvər səylərini təqdir edirik. Eyni zamanda, İcmamız Ermənistan hökumətinin sülhə və insan hüquqlarına qarşı fəaliyyətindən ciddi şəkildə narahatdır. Ermənistanın apardığı irimiqyaslı silahlanma proqramı, dövlət səviyyəsində həyata keçirdiyi irqçilik siyasəti və bu çərçivədə Qərbi azərbaycanlıların qayıdış hüququnu danması regionda vəziyyəti gərginləşdirir”.

Erməni baş nazirin iddiasının əksinə olaraq, İcma qeyd edib ki, Ermənistana qarşı heç bir hərbi təhdid yoxdur. Bunu, eləcə də Ermənistanın təcavüzkar keçmişini, hərbi gücdən məsuliyyətlə istifadə edə bilmədiyini, Azərbaycana qarşı törətdiyi hüquq pozuntularına görə məsuliyyətini etiraf etmədiyini və səmimi peşmançılığını ifadə etmədiyini, siyasi dairələrində və cəmiyyətində revanşist əhvali-ruhiyyənin hökm sürdüyünü nəzərə alsaq, onun kütləvi şəkildə silahlanmasının Azərbaycana qarşı hücum niyyətindən xəbər verdiyini tam əminliklə söyləmək olar.

**İcma tələb edir!**

“Baş nazir Paşinyanın məqaləsində Qərbi Azərbaycan məsələsini hərbi təhdid kimi təqdim etməsi tamamilə qəbuledilməzdir. Baş nazirin bu mövzuda söylədikləri, o cümlədən guya İcmanın əsas sənədlərində Ermənistan ərazisinin 60 faizinə iddia əks olunduğuna dair fikirləri əsassızdır. Azərbaycanlıların paytaxt İrəvan daxil olmaqla, Ermənistanın bütün bölgələrində yaşamış olduqlarını və vaxtilə orada etnik üstünlüyə malik olduqlarını xatırlatmaqla bərabər, bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan İcması Ermənistandan zorla çıxarılmış azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində, Ermənistanın ərazi bütövlüyünə hörmət etməklə, sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə öz evlərinə qayıtması uğrunda mübarizə aparır”- deyə bəyan edən Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən sülhə və insan hüquqlarına zidd addımlarına, o cümlədən hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymağı, silahlanma proqramını dayandırmağı, aldığı hücum xarakterli ağır və müasir silahları geri qaytarmağı və Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağı tələb edib.

*Nardar BAYRAMLI*

# Türkiyədən Azərbaycana rekord ixrac

## Ötən il 3 milyard dollardan çox məhsul ixrac edilib

2024-cü ildə Türkiyənin ən çox məhsul ixrac etdiyi ölkələr sırasında Azərbaycan beşinci yerdədir. Qeyd olunan dövrdə Türkiyə qonşuları Azərbaycan, Bolqarıstan, Gürcüstan, İran, İraq, Suriya və Yunanıstana, ümumilikdə, 34,2 milyard dollarlıq məhsul ixrac edib. Sözügedən məbləğ 2023-cü ildə təxminən 31,9 milyard dollar təşkil edib ki, bu da illik müqayisədə 7,4 faiz artım deməkdir.

Türkiyənin ən çox məhsul ixrac etdiyi ölkə 13 milyard dollarla İraq olub. Siyahıda İraqdan sonra 5,2 milyard dollarla Bolqarıstan, 4,8 milyard dollarla Yunanıstan, 3,2 milyard dollarla İran, 3,1 milyard dollarla Azərbaycan qərarlaşıb. İxracda ən böyük illik artım 21,9 faizlə Bolqarıstana, 15,5 faizlə Yunanıstana və 10,1 faizlə Azərbaycana qeydə alınıb.



Qeyd edək ki, Naxçıvanla bağlı rəsmi məlumat olmadığı üçün hesablamaya daxil edilməyib.

# Ermənilərin məscidə qarşı davranışı...

## İcma: Bu, Azərbaycan xalqının dini və mədəni heysiyyətinə toxunan açıq provokasiyadır

İndiki Ermənistanın ərazisində tarixən azərbaycanlılara məxsus mədəni, tarixi və dini abidələr kütləvi şəkildə dağıdılıb. Azərbaycanlılar bir vaxtlar mütləq əksəriyyəti təşkil etdikləri indiki Ermənistandan tamamilə qovulublar. Bundan sonra sözügedən dağıntılar daha kütləvi hal alıb. Ermənistan hökuməti Azərbaycanın maddi və qeyri-maddi mədəni irsini bilavasitə məqsədli şəkildə ilə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla məhv edib. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, işğal zamanı və ondan sonrakı dövrdə baş verib. Yəni, Ermənistandakı Azərbaycanın mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin “hərəkətverici qüvvəsi” Ermənistan hökumətinin mono-etnik və tək-mədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olub və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilib.

### Təpəbaşı məhəlləsi nadir tarixi nümunədir

Ermənistanın azərbaycanlıların mədəni irsinə qarşı törətdiyi qanunsuzluqlara irs nümunələrinin mənimsənilməsi və təhrif edilməsi də daxildir. Ermənistanda salamat qalmış yeganə məscid olan paytaxt İrəvandakı Göy Məscid qəsdən yanlış şəkildə “fars məscidi” kimi təqdim edilir. Əslində, məscidi inşa edən və əsrlər boyu orada ibadət edənlər o vaxt şəhərdə mütləq əksəriyyəti təşkil etmiş azərbaycanlılar olublar. Ermənistan hökuməti orada Azərbaycan mədəniyyətinin son izlərini silməkdə davam edir.

İrəvan şəhərinin Təpəbaşı məhəlləsi də şəhərin tarixi mərkəzinin bu günə qədər gəlib çatmış yeganə parçasıdır. Bu məhəllə XVII əsrdən bu günə qədər İrəvanın tarixi yaddaşını özündə saxlayır. Tarixən azərbaycanlıların məskunlaşdığı Təpəbaşı məhəlləsi indi məhv olmaq təhlükəsi altındadır. XIX əsrin I yarısında Təpəbaşı hissəsində yerləşən küçə və məhəllələrin adları Azərbaycan adları idi. Məsələn, Dərəkənd, Axund, Xan bağları, eləcə də Əsəd bəy, Adalyar, Təpəbaşı, İmarət və Daşlı küçələrini sadalamaq olar. Təpəbaşı öz memarlığı və tarixi ilə Azərbaycan tarixinin bir hissəsini təşkil edir.

Bunu İrəvan şəhərinin sonrakı dövrlərə aid planlarında da görmək mümkündür. Belə ki, 1831-1832-ci illərə aid kameral təsvirlər göstərir ki, şəhərin Təpəbaşı hissəsindəki məhəllə və küçələr sonrakı dövrlərdə də eyni adla və eyni etnik tərkiblə qalıb. Təpəbaşı hissəsində mövcud olan küçə adları XX əsrin əvvəllərində də Azərbaycan dilində adlandırılırdı. Bütün bunları dövrün arxiv sənədləri də təsdiqləyir. XIX əsr boyunca ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsinə baxmayaraq, İrəvan şəhərinin əhalisinin etnik tərkibində yenə də azərbaycanlıların üstünlük təşkil etdiyi aydın görünür.

Vaxtilə azərbaycanlılardan ibarət olan bu məhəllənin etnik tərkibi tarixin üç mərhələsində (1918-1920-ci, 1948-1953-ci, 1988-ci il illər) süni şəkildə dəyişdirilib və bu gün ermənilərdən ibarət monoetnik məhəlləyə çevrilib. Burada yaşayanların böyük hissəsi 1920-ci illərdə rəsmi olaraq hələ İrəvan adlandırılan şəhərə qonşu dövlətlərdən köçürülən ermənilərdən ibarətdir. Arxivlərdə bunu sübut edən çoxlu sayda sənəd saxlanılmaqdadır.

### Məscid spirtli içkilərin istehlak edildiyi məkana çevrilib

Ermənistan Təpəbaşında yerləşən məscidin tarixini saxtalaşdıraraq fars məscidi kimi dövlət qeydiyyatına alsa da, abidənin qorunması ilə bağlı heç bir tədbir görülmür və onun uçulub dağılmasına şərait yaradılır. Üstəlik, bu gün tarixi məscidə qarşı davranış qəbuledilməzdir.

Belə ki, bugünlərdə sosial şəbəkələrdə bir blogerin İrəvanın Təpəbaşı məhəlləsində yerləşən tarixi Azərbaycan məscidinin qalıqlarını lentə aldığı görüntülər yayılıb. Həmin görüntülərdən aydın olur ki, məscid hazırda spirtli içkilərin istehlak edildiyi məkana çevrilib. Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyan edib ki, bu, Azərbaycan xalqının dini və mədəni heysiyyətinə toxunan açıq provokasiyadır. İcmanın bəyanatında deyilir ki, Ermənistan tərəfinin Azərbaycan mədəniyyət abidələrini qəsdən məhv etməsi və Azərbaycan xalqının indiki Ermənistan ərazisindəki mədəni izlərini silməsi, beynəlxalq hüququn, o cümlədən 1954-cü il Haaqa Konvensiyası və UNESCO-nun müvafiq qərarlarının kobud şəkildə pozulmasıdır. Ermənistanın bu addımları bölgədə sülh və barışığın əldə olunmasına ciddi maneə törədir.



### UNESCO məsələyə səssiz qalmamalıdır

“Mədəni irs obyekti sayılan Təpəbaşı məscidinin dağıdılmasına, qalıqlarının isə bü cür təhqiramiz şəkildə istifadəsinə qətiyyətlə etiraz edərək, UNESCO-nu və digər beynəlxalq təşkilatları təxirəsalınmaz addımlar atmağa, o cümlədən, məscidin və digər dağıdılmış Azərbaycan abidələrinin bərpası və qorunması üçün Ermənistana təzyiq etməyə çağırırıq”,- deyə bəyan edən Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən, Azərbaycan xalqına məxsus bütün dağıdılmış və ya saxtalaşdırılmış mədəniyyət abidələrinin bərpası və qorunması istiqamətində öhdəliklərini dərhal yerinə yetirməyi tələb edib.

Ümumiyyətlə, mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qəbul edilən əsas hüquqlarının təmin edilməsindən irəli gələn tələbdir. Mədəni irsdən bəhrələnmək insanların ləyaqətlə qayıtması yanaşmasının əsas elementlərindəndir. Mədəni hüquqların, yəni bütün müxtəlifliyi ilə insan yaradıcılığının və onun həyata keçirilməsi, inkişaf etdirilməsi, əlçatan edilməsi, qorunub saxlanılması və mühafizəsi üçün şəraitin təmin edilməsi əsas hüquqlarımızın ayrılmaz bir hissəsidir. Bu baxımdan, Ermənistan Qərbi azərbaycanlıların qayıdışından əvvəl, qayıdış dövründə və sonra bu hüquqları təmin etmək üçün öhdəlik daşıyır. Bütün bunları nəzərə alaraq, mədəni irsimizin bərpası və qorunmasında beynəlxalq təşkilatlar, xüsusilə UNESCO öz dəstəyini verməlidir.

***Nardar BAYRAMLI***

# Konqresmenlər bu dəfə Rubioya “üz tutur”

## Erməni xahişi edənlərin sayı 15 dəfə azalıb

Son 4 ildə ABŞ-da fərqli bir tendensiya hiss olunurdu - Qərbin qoruduğunu bəyan etdiyi “dəyərlər” elə ABŞ tərəfindən, bu ölkəyə rəhbərlik edən administrasiya tərəfindən nəzərə alınmırdı. İllərlə separatizmə qarşı mübarizə strategiyasını özünün siyasi-hərbi prioritetləri sırasında qeyd edən ABŞ Bayden hakimiyyəti dövründə tamam fərqli bir kurs götürmüşdü. Beynəlxalq ədalət prinsipini, bəşəri insani dəyərləri bir göz qırpımında özünün korporativ maraqlarına qurban verən keçmiş hakimiyyət xüsusilə, Cənubi Qafqaza yanaşmasında fərqli standarta əl atırdı. Bayden administrasiyası bölgədə yaranan yeni reallıqları heç də əməkdaşlıq müstəvisində yaranan yeni imkanlar kimi dəyərləndirmirdi - əksinə, son 4 ildə bölgədə formalaşdırılan siyasi situasiyaya mənfi təsirlər göstərmək üçün addımlar atır, hətta müraciətlər belə edirdilər.

### Cinayətkara azadlıq “tələbi”...

2023-cü il antiterror əməliyyatı ilə Azərbaycan özünün suverenliyini bərpa etməklə yanaşı, illərlə separatizm yayan, Azərbaycan qanunlarını pozan, müxtəlif cinayətlərdə günahlandırılan şəxslərin ədalət mühakiməsi qarşısına çıxmalarını da təmin etmişdi. Bu, ali hüququn təntənəsidir - cinayətkarın törətdiyi cinayətin məsuliyyətini daşıması ədalətin və hüququn qələbəsidir. Amma deyəsən, Bayden hakimiyyəti üçün bu dəyərlər artıq aşınmışdı - təsadüfi deyildi ki, ötən il Bakıda keçirilən COP29 öncəsi bir qrup amerikalı konqresmen o dövrün dövlət katibi Antoni Blinkenə müraciət edərək Azərbaycana təzyiq göstərilməsini, mühakimə olunan təqsirləndirilən bir sıra şəxslərin azad edilməsinə nail olunması “xahiş” etmişdilər. Bu 60 deputatın kimliyi isə hər kəsə bəlli idi - onlar, illərdir ki, Azərbaycana qarşı aparılan haqsız kampaniyaların təşkilatçıları və iştirakçıları, erməni lobbisinin himayəsində ABŞ-ın dövlət maraqlarını heçə sayanlar idilər.

### “Dəyənək dəstəsi” iş başında...

Bayden administrasiyasının hakimiyyətinin başa çatması ilə ABŞ-da yeni siyasi mühit formalaşıb. Son dövrlərdə atılan addımlar, bu administrasiyanın apardığı korrupsioner fəliyyətin ifşası, ölkənin dövlət maraqlarından deyil, lokal korporativ maraqlardan çıxış etməsi deyəsən erməni lobbisinin “dəyənək dəstəsi”nə çevrilmiş konqresmenləri də “tərpədib”. Yeni administrasiyanın addımlarında dövlət mənafeynə əsaslandığını görən bəzi konqresmenlər ənənəvi erməni sevdası ilə hərəkət etmək istəyiblər - belə ki, bir neçə konqresmen ABŞ Dövlət katibi Marko Rubioya müraciət edərək Bakıda saxlanılan erməni terrorçularının azad edilməsinə köməklik göstərilməsini, eləcə də Ermənistanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasında nəzərdə tutulmuş müddəaların həyata keçirilməsinə dəstək verilməsini xahiş ediblər.



Əslində, bu müraciətin özündə bir sıra maraqlı elementlər mövcuddur. Birincisi müraciət edənlərin sayına diqqət yetirdikdə, çox şeyə məlum olur. ABŞ dövlət katibi Marko Rubioya Azərbaycana təzyiq çağırışı üçün göndərilən məktuba cəmi 4 konqresmen imza atıb - Frenk Pallone, Qas Biliriakis, Bred Şerman və David Valadao. Bu 4 şəxsin hər biri bundan öncə Azərbaycana qarşı kəskin mövqeyi və erməni lobbisi ilə sıx əməkdaşlığı ilə tanınıb.

Məsələn, islamofob, türkofob, maliyyə fırıldaqçısı, korrupsioner kimi şöhrət qazanan konqresmen Frank Pallonenin erməni yandaşı olması sirr deyil. O, ABŞ-da “ermənidən betər erməni” kimi tanınan şəxslərdəndir - Peloninin konqesdə ermənilərin çoxluq təşkil etdiyi Nyu-Cersi ştatını təmsil etməsi də bu faktı təsdiqləyir. Erməni təbliğatının sınıq təkəri olan Pallone var gücü ilə ölkəmizə qarşı aparılan antimilli kampaniyaları təşkil edir, dəstəkləyir. Onun xüsusilə, 44 günlük Vətən müharibəsi və 2023-cü il antiterror əməliyyatlarından sonra fəallaşması diqqəti cəlb edir. İqlim dəyişikliyinin qarşısını almağı hədəfləyən bir konfransda iştirak üçün BMT tərəfindən dəvət edilən bu şəxs ermənilərin 30 ilə yaxın

### Ermənipərəstlərin sırası seyrəlib...

yürütdüyü zorakılığı və işğalı dəstəkləyib - paralel olaraq, ermənilərin Azərbaycan torpağında törətdikləri ekoloji təcavüzü belə normal qarşılayıb. 1992-si ildə qəbul edilmiş “Azadlığa Dəstək Aktı”na “907-ci düzəlişin dəstəkçilərindən və təbliğatçılarından sayılan Pallone ölkəmizə qarşı mənfi münasibəti ilə seçilib - 1999-cu ildə Konqresin bir qrup nümayəndəsi ilə Azərbaycanda səfərdə olan zaman çadır şəhərciklərində yaşayan qaçqın və məcburi köçkünlərlə görüşdən imtina etmiş yeganə deputat olub.

Eyni zamanda, ötən ilin sentyabrında Pallone ABŞ Konqresində müzakirəyə çıxarılan Azərbaycanın Qarabağa “təcavüzü” ilə bağlı “Artsax Gəlirlərinin Bərpası Aktı”nın müəlliflərindən biridir. “Təklif”də birmənalı olaraq bölgədə qeyri-sabit durum yaratmaq, Azərbaycanın suveren hüquqlarının pozulması, gərginliyin artırılması (burada hətta müharibəyə təhriklə bağlı epizodlar belə yer alır - P.İ), demokratiyanın pozulması halları “göz oxşayır”.

4 konqresmenin Rubiodan “xahiş”in mətni və məğzi isə dəyişmir - onlar Azərbaycan qarşı Maqnitski qanununun işə salınmasını, Ermənistanın ərazi bütövlüyünü qorunmasını, hərbi cinayətlərdə ittiham olunan ermənilərin azad olunması üçün Bakıya təzyiq edilməsini istəyiblər.



### Xartiya “xahişi”...

Bəli, konqresmenlərin müraciətini imzalayanların sayının Bayden administrasiyası dövrü ilə müqayisədə 15 dəfə azalması çox mətləbdən xəbər verir. Bu həm də onu göstərir ki, ABŞ-ın yeni hakimiyyəti vəziyyəti fərqli parametrlər üzrə qiymətləndirir - burada erməni lobbisinin və ya Ermənistanın deyil, ABŞ-ın öz maraqları ön plana çəkilir. Belə olmasaydı, yeni “müraciətdə” xartiyanın “işləkliyi” məsələsi xüsusi qeyd olunmazdı. Bayden hakimiyyəti dövrünün son günlərində imzalanan bu xartiya ABŞ üçün heç də mühüm anlam daşımır - bütün hallarda yeni rəhbərlik bunu öz hərəkətlərində hiss etdirirlər. Belə olmasaydı, Pallone kimilərinin ötrü boşalmaz, tam əksinə erməni puluna xidmət edən digər konqresmenlər də bu kampaniyada aktiv şəkildə yer alardılar. Demək ki, situasiya dəyişdiyi kimi, məsələlərə baxış bucağı da dəyişib. Ermənipərəstlərin cinayətdə təqsirləndirilən şəxslərə “azadlıq” tələbinin arxasında hansı maraqların dayanması hər kəsə bəllidir...

***P.İSMAYILOV***

# Yaxın Şərqdə yeni oyunçular

## Türkiyə və Səudiyyə Ərəbistanın əhəmiyyəti artmaqdadır

Almaniya Avropa İttifaqının (Aİ) lideri olduğunu yenidən sübut etməyə başlayıb. Post-Merkel dövründə Avropanın siyasi məkanında Fransanın önə çıxmasına baxmayaraq, son otuz ildə Almaniya Aİ-nin iqtisadi-enerji siyasətinin formalaşması, enerji təhlükəsizliyinin təmin olunması və diplomatik-siyasi və iqtisadi-ticari münasibətlər sisteminin müəyyən olunmasında aparıcı rol oynayıb - doğrusunu desək, Parisdən fərqli olaraq, Berlin hər zaman ittifaqın ən ağır yükünü çiyinlərində daşıyıb. Trampın ikinci hakimiyyəti dövründə Almaniyanın həm regional, həm də beynəlxalq məkanda bir daha önə çıxacağı ehtimal olunur.

Fevralın ilk həftəsində Yaxın Şərq ölkələrinə - Səudiyyə Ərəbistanı, İordaniya və Türkiyəyə rəsmi səfər edən Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer Məhəmməd bin Salman və İordaniya kralı Abdullah bin Al Hüseyn ilə görüşüb. "Arab news" və "Jordan Times" un məlumatına görə, görüşdə ikitərəfli diplomatik-siyasi və iqtisadi-ticari münasibətlər, o cümlədən regionda hazırkı proseslər ilə bağlı müzakirələr aparılıb. İordaniya kralı ilə görüşdən sonra Almaniya prezidenti İordaniyanın "Al-Arzaq" hərbi hava qüvvələri bazasında Alman hərbi kontigentinə baş çəkib - kontingent İŞİD terror təşkilatına qarşı yaradılan beynəlxalq missiyanın tərkibində fəaliyyət göstərir.





Son zamanlar Yaxın Şərq beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çevrilib - istər Suriyada post-Əsəd dövrünün formalaşması, istərsə Qəzzada uzunmüddətli müharibədən sonra atəşkəsin təmin olunması, istərsə də Trampın Qəzza ilə bağlı təklifləri bu regiona diqqətin artırılmasına gətirib çıxarıb. Qeyd etmək lazımdır ki, Yaxın Şərq məkanında regional aktorların, xüsusilə Türkiyə və Səudiyyə Ərəbistanın önə çıxması və hər iki ölkənin regionun aparıcı qüvvəsinə çevrilməsi bir sıra Qərb ölkələrini bu iki ölkə ilə hesablaşmağa vadar edib - Frank-Valter Ştaynmayerin regiona üç günlük səfəri bunu sübut edir. Bütövlükdə, Yaxın Şərqdə baş verən son proseslər onu deməyə əsas verir ki, Qərb güc mərkəzləri, hətta ABŞ-ın özü belə regionda proseslərdə yaxından iştirak etmək üçün Türkiyə və Səudiyyə Ərəbistanın, habelə müəyyən ərəb ölkələrinin maraqlarını nəzərə almaq, onlarla təmaslar qurmaq və koordinasiyalı şəkildə fəaliyyət göstərmək məcburiyyətində olacaqlar.

Ümid etmək olar ki, Almaniyanın gələcək rəhbərliyi bunu başa düşəcək və Yaxın Şərq siyasətində Ankara və Ər-Riyadın siyasi çəkisini nəzərə alacaq və öz addımlarını hər iki ölkənin mövqeyinə uyğun atacaq. Şübhəsiz ki, digər Qərb ölkələri kimi Almaniya da Suriyada gələcək prosesləri izləməyə çalışacaq - Berlin bu ölkənin yenidən qurulmasına və hərbi-təhlükəsizliyinin formalaşmasına dəstək vermək niyyətində də ola bilər, sözsüz ki, Türkiyə ilə birgə fəaliyyət çərçivəsində bu istiqamətdə addımlarını atacaq - ən əsası da radikal terror qruplaşmalarına qarşı mübarizə prioritet olacaq.

### Berlin Suriyanın yenidən qurulmasına dəstək vermək niyyətindədir

### Türkiyə bölgədə sülh və sabitliyin təminatına töfhə verir

Ştaynmayer son səfərini fevralın 5-də Türkiyəyə edib - "Yeni Safak" bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşdə də Yaxın Şərqdəki proseslər, xüsusilə Suriya və Qəzzada mövcud vəziyyət barədə ətraflı müzakirə aparılıb. Hər iki liderin görüşündə Almaniya-Türkiyə və Aİ-Türkiyə münasibətlərinə də toxunulub. Görüşdən sonra hər iki prezident mətbuat konfransında çıxış ediblər.

Yüksək səviyyəli səfərlərin və beynəlxalq platformalarda keçirilən ikitərəfli görüşlərin iki ölkə arasında siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə əlaqələrin inkişafına töfhə verdiyini deyən Ərdoğan Türkiyənin Almaniya ilə xarici ticarət dövriyyəsini artırmaqda və qarşılıqlı investisiyalar təşviq etməkdə, eləcə də terror və qeyri-qanuni miqrasiyaya qarşı birgə mübarizə aparmaqda maraqlı olduğunu vurğulayıb.

Ərdoğan, həmçinin Ankaranın Suriya, Qəzza və Ukrayna ilə bağlı məsələlərdə Berlin ilə əməkdaşlıq etməyə hazır olduğunu da bəyan edib. Ştaynmayer isə öz növbəsində Türkiyənin Yaxın Şərqdə sülh və sabitliyin təminatına töfhə verən aparıcı ölkə olduğunu və Berlinin Ankara ilə bu məsələdə eyni maraqları bölüşdüyünü bildirib. Almaniyanın dövlət rəhbəri hesab edib ki, Suriya və Qəzzada mövcud problemlərin yalnız danışıqlar və dialoq, bütün tərəflərin iştirakı və qarşılıqlı maraqların nəzərə alınması fonunda əldalətli prinsiplər çərçivəsində həll oluna bilər. Eyni zamanda, həm Ərdoğan, həm də Ştaynmayer ABŞ-ın yeni prezidenti Donald Trampın Qəzza ilə bağlı təkliflərinin qəbuledilməz olduğunu və İsrail ilə Fələstin arasındakı münaqişənin yalnız ikili dövlət planına əsasən həll olunmasının zəruriliyini də nəzərə çatdırıblar.

### Avropanın enerji asılılığında ərəb regionunun rolu arta bilər

Bildiyimiz kimi, Almaniya Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatçısı qismində çıxış edən ən aparıcı ölkədir. Berlin çox yaxşı bilir ki, post-Əsəd Suriyası dövründə Səudiyyə Ərəbistanı və Körfəz ölkələrinin, həmçinin Şərqi Aralıq dənizindəki neft-qaz ehtiyatlarının Avropa bazarına daşınması na əlverişli şərait yaranıb. Rəsmi Berlinin bu məsələnin ciddiliyinə varacağına şübhə yoxdur. Bu baxımdan ehtimal etmək olar ki, yaxın gələcəkdə Almaniya Körfəz ölkələri və Türkiyə ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində Yaxın Şərq və Şərqi Aralıq dənizindəki təbii enerji resurslarının Avropa bazarına çıxışını təmin etmək üçün böyük infrastruktur və investisiya layihələri həyata keçirəcək.

Məhz Almaniyanın təşəbbüsü ilə Aİ bu məsələdə aktiv rol oynamağa - yeni enerji proqramları irəli sürməyə razı olacaq.

*Yunis ABDULLAYEV*

# Fransa cəmiyyəti Makrona qarşı

Keçmişin uğurlarının uzun müddət istismar edilməsinin dövətlər üçün hansı kədərli nəticələrə gətirib çıxartdığını Fransanın nümunəsi bir daha təsdiqləyir. Fransa böyük tarixi və ənənələri olan bir dövlətdir. Dünya üçün bir sıra yeniliklər məhz burada intişar tapıb. Ancaq bütün bunlar qaytarılması mümkün olmayan keçmişdir. İctimai müzakirələrdə tez-tez səslədirildiyi kimi, bu günün Fransası dünənin Fransası deyil və bunu heç müqayisəyə gətirmək də mümkün olmaz. Reallıq ondan ibarətdir ki, hazırda bütün dünya Fransaya Makronun cılız siyasəti prizmasından yanaşır. Bu siyasət isə ölkəni ənənələrindən geri döndərib. Etiraf olunur ki, Yelisey Sarayının siyasəti qlobal gündəliklə uzlaşmır, yeni çağırışlarla adekvatlıq təşkil etmir. Bu gün zamanında hegemonluq etdiyi Afrikadakı, dənizaşırı ərazilərdəki müstəmləkələrindən çıxarılaraq rədd edilən Fransanın daxilində də vəziyyət pisləşməkdədir. Ölkədə tətillər, etirazlar permanent hal alıb. Narazılıqlar fonunda, həmçinin Makrona və onun komandasına qarşı müqavimət cəbhəsi getdikcə güclənir.

## Makronun 8 ildə ən aşağı populyarlıq reytinqi

Ölkənin arzuolunmaz reallıqları fonunda Makronun populyarlıq reytinqinin aşağı düşməsi diqqət çəkir. O, 2025-ci ilin yanvar ayında 2017-ci ildə Yelisey Sarayına gəldikdən sonra ən aşağı populyarlıq reytinqinə çatıb. Artıq Fransa prezidenti insanların rəğbətini qazana bilmir. İFOP sorğu mərkəzinin "Journal du Dimanche" qəzeti üçün apardığı sosial sorğunun nəticələri Makron üçün fəlakətlidir. Aylıq İFOP barometrinə görə, seçildikdən 8 il sonra Makron ən aşağı populyarlıq reytinqinə çatıb, fransızların yalnız 21 faizi onun fəaliyyətini qənaətbəxş hesab edir. E.Makron dekabrla müqayisədə 3 bal itirib. Yanvar ayına olan göstəricilərə görə, ümumilikdə, fransızların 79 faizi Makronun fəaliyyətindən narazıdır. Bununla da Fransa prezidentinin reytinqi hətta "Sarı jiletlilər" böhranı zamanındakından da aşağı düşüb. Yeni Baş nazir Fransua Bayrudan da narazılıq yüksək həddədir. Belə ki, fransızların 66 faizi yeni Baş nazirin fəaliyyətini qənaətbəxş hesab etmir.



## Yelisey Sarayının sahibi senatorların hədəfində

Üç fransız senator hazırladıqları hesabatda Makronun Afrikadakı xarici siyasətinin uğursuzluqları ilə yanaşı, onun Fransanın imicinə və qitə ölkələri ilə münasibətlərə mənfi təsirini vurğulayıblar. Fransada Senat tərəfindən açıqlanan hesabatda fransız qoşunlarının ardıcıl şəkildə Mali, Burkina Faso, Niger və ən son Çaddan çıxarılmasının, son illərdə qitədə Fransanın imicinin, onun müəyyən ölkələr və onların əhalisi ilə münasibətlərinin ümumi şəkildə pisləşməsinin Makronun xarici siyasətinin böyük uğursuzluğunun nəticəsi olduğu bildirilib.

Senatorlar bu uğursuzluğu Makronun istifadə etdiyi metodlar, eləcə də əvvəllər Fransanın tərəfdaşı olmuş bir çox rejimin devrilməsinə gətirib çıxaran vəziyyətin dərindən təhlil edilməməsi ilə əlaqələndiriblər. Rəsmi Parisin verdiyi bir sıra qərarlar və bəyanatların təkəbbürlü, Afrika liderlərinə və ya xalqlarına qarşı aşağılayıcı xarakter daşıdığı diqqətə çatdırılıb. Qeyd edək ki, Çaddan sonra Seneqal da Fransa hərbi bazalarının 2025-ci ilin sonunadək ölkədən çıxarılmasını tələb edib. Kot-d'İvuar Prezidenti Alassan Uattara isə Fransa hərbi bazasının artıq ölkənin nəzarəti altında olacağını bildirib.

Eyni zamanda, Fransanın Qərbi və Mərkəzi Afrikadakı mövcudluğunun "yenidən qurulması" planına uyğun olaraq, Parisin Qabondakı hərbi mövcudluğu Mali, Burkina Faso və Nigerdən qoşunların çıxarılması ilə əlaqədar azaldılır. Son illərdə bu üç ölkədə bir sıra dövlət çevrilişləri suveren yerli liderlərin yüksəlişi ilə yanaşı, Fransanın Afrikadakı keçmiş müstəmləkələri arasında münasibətlərdə əsaslı dəyişikliyə gətirib çıxarır.

"Makron ölkədə dövlət çevrilişinə hazırlaşır". Bu fikri isə Fransanın "Vətənpərvərlər" partiyasının lideri Florian Filippo sosial şəbəkələrdə bildirib. O hesab edir ki, Riçard Ferranın Konstitusiya Şurasının sədri vəzifəsinə təyin edilməsi təsadüfi deyil. Belə ki, Makron onun vasitəsilə üçüncü prezidentlik müddətinə namizədliyini irəli sürmək imkanı əldə etmək üçün qanunla qoyulan qadağanın ləğvinə nail ola bilər.

## Küçələrdə ölənlər son bir ildə 15 faiz artıb

Aparılan uğursuz siyasətin nəticəsi olaraq sosial vəziyyətin ağırlaşması, Parisdə və regionlarda etirazların getdikcə genişlənməsi də bugünkü Fransanın kədərli reallığıdır. Mənzil Fondunun dərc etdiyi hesabata görə, Fransada 350 min insan küçədə yaşayır. Verilən məlumatlara görə, hər axşam minlərlə qadın, uşaq və kişi küçələrdə yatır. Mənzil Fondunun kasıbların küçədə və ya acınacaqlı şəraitdə olan mənzillərdə yaşadıqlarını əks etdirən 30-cu hesabatı ölkədə mənzil böhranının çox dərin olduğunu göstərir.





Hesabatda küçədə yaşayanların sayının iki dəfədən çox artdığı vurğulanıb. "Əyilməz Fransa" (LFİ) partiyasının üzvü M. Pano Makronun hələ 2017-ci ildə seçki kampaniyasında bu problemi kökündən həll etməyə dair vədlərini təkrarlayıb. Ancaq bu müddət ərzində problemin həll edilmədiyi və əksinə, küçədə yaşayanların sayının çox sürətlə artdığını diqqətə çatdırıb. Ölkədə 203 min mənzilə təcili ehtiyac olduğu bildirilir. Hazırda Fransada küçədə yaşayan 350 min insanın qeydiyyatda olduğu və bu rəqəmin ötən illə müqayisədə 6 faiz artdığı qeyd edilir. Həmçinin Fransada 4,2 milyon insanın mənzil şəraiti son dərəcə pisdir.

Üç yüz əlli səhifəlik hesabatda əlilliyi olan şəxslərin də problemlərinə toxunulur, yeni tikilən binaların 20 faizinin əlil şəxslər üçün uyğun olmadığı bildirilir.

"Küçədə ölənlər" (les Morts de la Rue) Assosiasiyasının hesabatına görə isə 2023-cü ildə Fransa küçələrində 735 nəfər ölüb və bu rəqəm son bir ildə 15 faiz artıb.

*MÜBARİZ*

# Aİ-yə üzvlük Ermənistana nə vəd edir?

Məğlub Ermənistan illərlə Rusiyanın çətiri altında olmaqdan özünü xoşbəxt sansa da, hazırda siyasi oriyentasiyasını dəyişib. Rəsmi İrəvan Moskvaya arxa çevirərək üzünü Qərbə tutub. Nə qədər təəccüblü görünsə də, ölkədə Avropa İttifaqına (Aİ ) üzvlük prosedurlarına start verilib. Belə ki, Nikol Paşinyanın rəhbərlik etdiyi hökumət "Ermənistan Respublikasının Avropa İttifaqına daxil olması prosesinə başlamaq haqqında" qanun layihəsini təsdiqləyib. Bundan sonra sənəd parlamentə göndərilib. Ermənistan parlamentinin Avropaya inteqrasiya üzrə komissiyası yanvarın 24-də qanun layihəsinə müsbət rəy verib və sənəd plenar iclasda müzakirələrə tövsiyə edilib. N.Paşinyan bildirib ki, müvafiq qanunun qəbulundan sonra Avropa İttifaqı ilə birgə müzakirələr aparılmalı və yol xəritəsi hazırlanmalıdır.

## Geosiyasi oyunun tərkib hissəsi

Bir vaxtlar ermənilər ölkələrinin Avropa İttifaqına üzvlüyünü heç xəyallarından belə keçirmirdilər. Bu, Ermənistanın Rusiyadan sıx asılılığı fonunda mümkünsüz görünürdü. Bəs birdən-birə nə dəyişdi ki, Ermənistanın qarşısında Aİ-yə üzvlük perspektivləri açıldı?

Ermənistan kimi bir ölkədə Aİ-yə üzvlüyün gündəmə gətirilməsi sırf sitüativ məqamlarla bağlıdır. Buna geosiyasi oyunların tərkib hissəsi kimi yanaşmaq daha məntiqli olardı. Məlumdur ki, bir sıra güc mərkəzləri hazırda açıq müstəviyə keçən Qlobal Şərq-Qlobal Qərb qarşıdurmasında öz maraqlarını həm də Cənubi Qafqaz üzərindən reallaşdırmağa çalışırlar. Kollektiv Qərb regionda Rusiyanın maraqlarına zərbə vurmaq və öz mövcudluğunu genişlənirmək istəyir. Azərbaycan milli maraqlardan, suverenlik prinsiplərindən çıxış etməklə beynəlxalq güclərin regiona nüfuz etmək siyasətinə qarşı çıxış edir. Bakı ən yüksək səviyyədə dəfələrlə bəyan edib ki, güc mərkəzlərinin qonşu dövlətlərə qarşı planlarında iştirak etməyəcək, ölkə ərazisindən plasdarm kimi istifadə olunmasına imkan verməyəcək. Gürcüstan da regionda əməkdaşlıq və sabitlik mövqeyindən çıxış edir. Belə prisipial mövqe tutduqlarına görə həm Azərbaycan, həm də Gürcüstan bir sıra Qərb dairələrinin əsassız hücumlarına məruz qalırlar. Məhz qərəzli, milli maraqlara uyğun gəlməyən yanaşmalara görə ötən il Azərbaycanın, cari ildə isə Gürcüstanın nümayəndə heyətləri Avropa Şurası Parlament Assambleyasında (AŞPA) fəaliyyətlərini dayandırıblar.

Ermənistana gəldikdə isə tamam fərqli mənzərə müşahidə edilir. Ermənistanın fürsətcil dövlət olduğu dəfələrlə təsdiqini tapıb. Bu ölkə öz mövcudluğuna görə bütünlüklə Rusiyaya borcludur. Bu gün də Ermənistanın Rusiyadan asılılığı kifayət qədər yüksək səviyyədədir. Bununla belə, fürsətcil Ermənistan şimal qonşumuzun indiki çətinliklərini nəzərə almaqla siyasi oriyentasiyasını dəyişməyə, Qərbin Cənubi Qafqazda mövcudluğunu təmin etmək planlarında yer almağa qərar verib ki, bu da rəsmi İrəvanın riyakarlığını bütün cəhətləri ilə bir daha açıb göstərir.



## Ermənistanın növbəti utopiyası

Aİ-yə üzvlük planları Ermənistanın növbəti utopiyasından başqa bir şey deyil. Bu ölkənin Aİ ilə sərhədləri yoxdur. Bundan başqa, Ermənistan resursları olmayan kiçik dövlətdir. Belə bir maionet dövlətin Aİ-yə hansısa bir fayda verəcəyini düşünmək sadəlövhlük olardı. Quruma üzvlüyün çətin bir proses olduğu da məlumdur. Bundan ötrü namizəd ölkə üzərinə öhdəliklər götürməli və onlara əməl etməlidir. İndiki vəziyyətində İrəvanın bu çətin prosesdən keçməyə gücü və potensialı yoxdur.

Ermənistanın Aİ-yə üzvlük yolunu mümkünsüz edən ən böyük maneə isə, heç şübhəsiz ki, Avrasiya İqtisadi İttifaqıdır. Ermənistan hazırda Aİİ-nin üzvüdür və burada imtiyazlardan gen-bol bəhrələnir. Aİİ-yə üzvlük Ermənistanın rəqib quruma -Aİ-yə üzvlüyünü istisna edir. Avropa Komissiyası müxtəlif səviyyələrdə dəfələrlə bəyan edib ki, Avropa İttifaqına və Avrasiya İttifaqına eyni vaxtda üzvlük mümkün deyil. Brüsselin bu mövqeyini dəyişdiyinə dair heç bir məliumat yoxdur.

Ermənistanın Aİ-yə üzv olmaq planları həmçinin Rusiyada və bütövlükdə Aİİ-də də birmənalı qarşılanmayıb. Rusiya prezidentinin mətbuat katibi D.Peskov bildirib ki, bu, Ermənistanın suveren hüququdur. Amma Aİ-nin bu məsələdə mövqeyi nəzərə alınmalıdır. Eyni zamanda, Kreml rəsmisi vurğulayıb ki, Aİİ üzvlüyü Ermənistana və xalqına çox müsbət dividentlər verir: "Amma Ermənistan həm Aİİ-nin, həm də Aİ-nin üzvü ola bilməz".

Rusiya baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, Rusiya Ermənistanın Avropa İttifaqına daxil olmasının müzakirəsini Avrasiya İqtisadi İttifaqından çıxışın başlanğıcı kimi qiymətləndirir. Onun sözlərinə görə, Kreml iqtisadi siyasətini Ermənistanla bu şəraiti nəzərə alaraq quracaq. "Avrasiya İqtisadi İttifaqı və MDB ilə əməkdaşlıq etməmək Ermənistana çətin olacaq". Bu fikir isə Aİİ-nin baş katibi Sergey Lebedev ifadə edib. "Ermənistan xalqı üçün əlavə çətinliklər, problemlər nəyə lazımdır? MDB ölkələri və Belarus, bildiyim qədər Ermənistana bu qarşılıqlı əlaqəni qoruyub saxlamağa kömək etməyə hazırdır", - deyə o qeyd edib.



## İqtidarın tərəddüdləri, cəmiyyətin bədbinliyi

Ermənistan iqtidarı hər nə qədər Qərbə inteqrasiyanın vacibliyindən danışsa da, rəsmi İrəvanın çaşqınlıq və tərddüdlər içində olduğu da aydın sezilir. Məlumdur ki, N.Paşinyanın komandasının üzvləri Ermənistanın Aİ-yə inteqrasiyasını cəmiyyətə iqtidarın böyük uğuru kimi sırımağa çalışır, bunu müstəsna nailiyyət kimi təqdim edir. Lakin N.Paşinyan, A.Mirzoyan və digərləri Aİİ səviyyəsində, o cümlədən Moskvada aparılan müzakirələrdə eyni qətiyyəti nümayiş etdirmirlər. Məsələn, Ermənistan XİN-in rəhbəri A.Mirzoyan bir qədər bundan əvvəl Moskvada Rusiyalı həmkarı S.Lavrovla mətbut konfransında Aİ mövzusunda kifayət qədər ehtiyatlı danışıb, bunu əsasən cəmiyyətdən gələn təşəbbüs kimi dəyərləndirib.Sitat: "Ermənistan hökumətinin qəbul etdiyi Avropa İttifaqına daxil olmaq haqqında qanun layihəsində heç bir müddət və mexanizmdən söhbət getmir. Bu, vətəndaş cəmiyyətinin təşəbbüsüdür, təşkilatlar lazımi 50 min səsi toplayıb, bu təşəbbüs avtomatik olaraq qanun layihəsinə çevrilib və bu qanun layihəsi parlamentdə səsverməyə qoyulacaq".

Eyni zamanda, Aİ-yə üzvlük məsələsinin gündəmə gəlməsi Ermənistan cəmiyyətində heç də xoş əhval-ruhiyyə yaratmayıb. Əksinə burada daha çox Aİ-yə üzvlüyün Ermənistan üçün mənfi nəticələr verəcəyi daha çox müzakirə olunur. Narahatlıq yaradan əsas məsələ Aİ-yə üzvlüyün reallaşacağı təqdirdə ölkənin üzləşə biləcəyi itkilərlə bağlıdır. Bu gün Aİ ilə ticarət dövriyyəsinin azalması fonunda Ermənistanın Aİİ-nin drayveri sayılan Rusiya ilə ikitərəfli əlaqələrinin sıçrayışla genişlənməsi xüsusi diqqət çəkir. Ötən il Ermənistanla Rusiya arasında ticarət dövriyyəsinin həcmi 12 milyard dollar səviyyəsinə çatıb. Sual olunur: Aİ -yə üzvlük müqabilində bu həcmdə ticarətdən imtina etmək nə dərəcədə məntiqlidir? O da əlavə olunur ki, 2024-cü ildə Rusiya ilə ticarət dövriyyəsinin artması fonunda Ermənistanın Aİ ilə ticarət dövriyyəsi 20 faiz azalıb. Erməni eksperlərinin qənaətinə görə, Aİ-yə inteqrasiya həmçinin Ermənistanın İranla əlaqələrinə də mənfi təsirsiz ötüşməyəcək. Beləliklə də, ölkənin təcrid vəziyyəti daha da dərinləşəcək. "Avroatlantik məkana inteqrasiya prosesinin davam etdirilməsi Ermənistanda yerli istehsalın sonunu gətirəcək və demoqrafik vəziyyəti daha da pisləçdirəcək", - deyə "Alternativ" tədqiqt mərkəzinin rəhbəri Tatul Manasepyan bildirib.

**MÜBARİZ FEYİZLİ**

# Monastıra aparan orta yol

## Stendalın "Parma monastırı" romanı haqqında

**əvvəli ötən sayımızda**

Fabrisio Parmada tamaşa verən gəzərgi teatrın aktrisasına vurulur. Marietta adlı qızın himayədarı aktyor Ciletti oğlanı öldürməklə hədələyir. O da bir vaxtlar Napoleonun əsgəri olub, qısqanc, davakar adamdır, vuran əli var. Şəhər civarında təsadüfən rastlaşdıqları vaxt Ciletti şpaqasıyla Fabrisioya hücum çəkib onu yaralayır. Özünü qorumağa məcbur olan gənc keşiş aktyoru öldürür. Əlindəki bu qan ləkəsiylə o, Parmaya qayıda bilməz. Fabrisio İtaliyanı şəhər-şəhər dolaşıb axırda Bolonyada dayanır, orada Marietta ilə yenidən görüşür.

Şahzadə Ernest Cinanı sındırmaq üçün Fabrisioya qarşı cinayət işi açdırır. Günahı sübuta yetirilsə, onu ya edam, ya da sürgün gözləyir. Bu qərar həm də qraf Moskanı təzyiq altında saxlamaq, onun karyerasını təhlükəyə atmaqdır. Prins düşünür ki, hersoginya Fabrisionu qurtarmaq üçün ayaqlarına düşüb ona yalvaracaq, göz yaşları içində ona təslim olacaq. Cina isə tamam ayrı cür davranır, köçünü tutub Parmadan biryolluq getməyə hazırlaşdığını bəyan eləyəndən sonra vidalaşmaq adıyla şahzadənin qəbuluna yollanır. Prins qorxur bu məğrur qadın Parmadan getsə, hər yerdə onu ifşa eləyəcək, odur ki, Cinanın bütün şərtlərinə boyun əyir. Doğrudur, ertəsi gün şərti pozub, Fabrisio nə vaxt şəhərdə peyda olarsa, onu tutub qalaya salmağı tapşırır.

Müxalif liberalların başçısı markiza Raversi bibisinin adından məktub yazdırıb Fabrisioya tələ qurur, Parmaya gələn gənci tutub qandallayıb qala türməsinə salırlar. Qalanın komendantı general Konti də müxalif partiyaya yaxın adamdır. Fabrisio komendantın qızı Kleliyanı türmənin həyətində görəndə ona bir könüldən-min könülə aşiq olur, qızın saf gözəlliyi oğlanı heyran qoyur.

Fabrisionun qüllədəki kamerasından komendantın həyəti görünür. Gündüz Kleliya qəfəsdəki quşlarını yemləmək üçün həyətə çıxır, pəncərədən ona göz qoyan dustaqla tez-tez baxışır, sonra da işarələrlə danışmağa başlayırlar. Bir az keçmiş hətta məktublaşırlar da. Kleliya atasına zərbə vurmaq bahasına olsa belə Fabrisionu dustaqlıqdan qurtarmaq haqda düşünür.

***

Şahzadə isə onu sındırmış hersoginyadan qisas almaq ehtirasıyla alışıb yanır. Bunun da bir yolu var: Fabrisio ölməli, onun dərdindən havalanmış Cinaya dağ çəkilməlidir. Öz növbəsində hersoginya Sanseverina da intiqam eşqiylə yaşayır. Cina Fabrisionu qaladan qaçırmaq planı cızır, ancaq oz sirrini yalnız bir nəfərə aça bilər: bu adam onun gizli aşiqi, qaçaq şair, qatı respublikaçı, despotizmə qarşı barışmaz mübariz Ferrante Palladır. O, məftunu olduğu Cinanın hər əmrinə müntəzirdir, üstəlik, monarxla da köhnə haqq-hesabı var.

Fabrisionu nə gözlədiyini qraf Moskadan öyrənəndə hersoginya yubanmadan hərəkətə keçir. Dustağı qaçırmaq üçün plan cızılır, kameraya kəndir, lazımlı alətlər keçirilir. Komendant qızı Kleliya da planda yer alır. Dustağınsa qaçmağa həvəsi yoxdur, sevgilisinin yaxınlığında Fabrisio özünü bəxtəvər sanır. Türmə keşişi qala kilsəsində onları görüşdürür, qız oğlanı inandırır ki, burada qalmağı ona həyatı bahasına başa gələcək, təcili qaçmağı məsləhətdir.

Bundan sonra Kleliya Məryəm ananın surəti qarşısında and içir: əgər Fabrisio dardan qurtulsa, bir də onu görməyəcək, atasının hökmünə tabe olub onun seçdiyi namizədə ərə gedəcək, qəlbini günahından bu yolla arındıracaq.

Qaçış baş tutur, Cina Fabrisionu İsveçrəyə aparır. Kədərli qardaşoğlu bibisinin sevincinə ürəkdən şərik ola bilmir. Bibi bunu onun Kleliyadan ayrı düşməyinə bağlayır. Hersoginya özü də artıq Fabrisionu əvvəlki kimi sevmir.

Bir müddət sonra qraf Moskadan çapar gəlir: prins qəflətən ölüb, Parmada xalq Ferrante Pallanın başçılığıyla üsyana qalxıb. Qraf üsyanı yatırıb gənc şahzadə V Ernesti taxta çıxarır. Bundan sonra qaçqınlar geri qayıda bilərlər. Fəqət hökm ləğv olunmayıb, hələ qüvvəsində qalır. Fabrisio işə məhkəmədə baxılana qədər tutqusuz-filansız könüllü türməyə qayıdır. Kleliya onu kameranın pəncərəsi qarşısında görəndə dəhşətə gəlir. General Konti qaladan qaçmağıyla onu xalq içində rüsvay, rəhbərlik yanında gözükölgəli eləmiş dustaqdan qisas alacağına and içir. Fabrisionu zəhərləmək istəyirlər, Kleliya bu planı da pozur.

***

Hökmün ləğvindən sonra Fabrisio Parmada yüksək ruhani mövqe qazanır. Onun olduqca təsirli moizələri, bəlağətli nitqi insanlara təsəlli verir, arxiyepiskopun şöhrətini hər yana yayır. Xalqa ümid aşılasa da, Fabrisio özü bədbin, bədbəxtdir. Andına sədaqətini qoruyan Kleliya atasının seçimiylə Parmanın ən varlı adamı markiz Kreşentsiyə ərə gedir, ancaq Fabrisionu qəlbindən silə bilmir.

Ümidsizlikdən üzülən Fabrisio əldən düşüb, arıqlamış sifətində gözləri pırtlaq görünür. Kleliya anlayır ki, ona qəddar davranıb, bu səbəbdən əzab çəkir, amma əhdini də poza bilmir. Nəhayət, yol tapılır, sevgililər qaranlıqda görüşməyə başlayırlar, bu vaxt Kleliya guya Məryəm anaya verdiyi sözdən yayınmış sayılmır, çünki zülmətdə Fabrisionun üzünü gerçəkdən görmür.

Üç il bu minvalla keçir, onların bir oğlu dünyaya gəlir. Fabrisio uşağı öz yanına aparmaq istəyir, di gəl, rəsmən oğlanın atası markiz Kreşentsi sayılır. O halda uşağı oğurlayıb, sonra da öldüyü barədə şayiə yaymaq lazımdır. Plan baş tutsa da, uşaq tezliklə doğrudan ölür. Ardınca bu itkinin ağrısına dözməyən Kleliya da canını tapşırır. Dalbadal iki ağır zərbə almış Fabrisio intihardan böyük iradə hesabına daşınır. O, arxiyepiskop vəzifəsindən imtina eləyib Parma monastırına çəkilir.

Hersoginya Sanseverina qraf Moskaya ərə gedib Parmadan həmişəlik köçür. Xoşbəxt, asudə həyata qədəm qoymağının üstündən bir il keçmiş Fabrisionun monastırda öldüyü xəbərini alandan sonra o da çox yaşamır.

***

Göründüyü kimi, Fabrisio del Donqonun taleyi təsadüflər üzərində qurulub: əgər bu romantik gənc həyat deyilən savaş meydanına iyirmicə il əvvəl atılıb Napoleonun zəfər yürüşlərində iştirak eləsəydi... Cina dul qalıb ata ocağına qayıtmasaydı... Vaterloo döyüşündə xəyal atından salınan Fabrisio ağır fiziki zədə alsaydı... bibisi Milanda qraf Moska ilə tanış olmasaydı... Fabrisio şəhər kənarında gəzərgi aktyor Ciletti ilə rastlaşmasaydı... qala türməsində onun saxlandığı kameranın pəncərəsi komendantın bağçasına baxmasaydı... Kleliya dustağa qəsd hazırlandığı barədə atasından eşitməsəydi... monarx qəfil ölməsəydi... uşağı xəstələnib tələf olmasaydı...

Axı bütün bu şərtlər həm də hansısa cümlənin əvvəlidir, bunlardan qabaq da, sonra da sonsuzluğacan uzanan bir zəncirin halqasıdır. Fabrisionun taleyi, ömürlüyü hər zaman özgə əllərdədir, hansısa təsadüfdən asılıdır. Təsadüflər eyni zamanda doğurduğu nəticələrin səbəbi rolunu oynayır. Belə çıxır bu nakam gənc fələyin kuklasıdır, onu hələ beşiyinə qoyulmamış ram eləyib cilovlayan qəzavü-qədər istədiyi yerdə ona rol ayırıb istədiyi məsələdə ondan alət düzəldə bilir. Belə çıxır onun fərdi iradəsi, azad ruhu yalnız monastıra çəkilmək qərarı verəndə dilə gəlir.

Oxucu Fabrisionun şöhrətlənmək arzusundan xəbər tutur, ancaq onun əsl təyinatının nə olduğunu bilmir. Onu tək bircə dəfə gerçəkdən sevən görürük - o da Kleliyaya münasibətdə. Ancaq bu da qəhrəmanın qəlbində əsaslı çevriliş yaratmır, yalnız qızın pak iradəsi, fədakarlığı sayəsində onun taleyini, aqibətini dəyişir. Fabrisio keşiş kimi fəaliyyətə başlayandan sonra da sevgilisinə cismən qovuşmaq istəyindən əl çəkmir, beləliklə qızı da, özünü də ağır günaha batırır. Bu günahdan törəyən körpə Sandrinonun, ardınca da Kleliyanın ölümü ona kəsilmiş edam cəzasıdır.

Demək, Fabrisionun "qırmızı"dan "qara"ya keçidi səmimi, mükəmməl olmayıb, həm də belə bir keçid yalnız fiziki ölümlə mükəmməlliyə çata bilər. O, canında tüğyan eləyən ehtirasların min bir rəngini zülmət saçan keşiş qiyafəsinin "qara dəliyinə" uddurmayıb, onları sadəcə qara parça altında ört-basdır eləyib. Bu səbəbdən parlaq dini karyera, kilsə qaranlığı belə ona dinclik gətirmir.

***

Çox güman, lap əvvəldən hərbçi karyerası baş tutsaydı, Fabrisionu bu da xoşbəxt eləməyəcəkdi, çünki qırmızıyla qara, həyatla ölüm bir-birinin alternativi deyil, bir-birinin astar üzü, o biri qütbü, o biri başıdır. Necə ki, tuti dilli Napoleonun qitələrə sığmayan qızıl qanlı zəfərləri sonda uzaq, kimsəsiz adada qara yuxular içində anlaşılmaz sayıqlamalarla bitdi. Əgər Fabrisio intihar eləsəydi, bu, onu təsadüflər dalğasında atıb-tutub daşdan-daşa çırpan, onu ehtiraslar burulğanında boğan həyat enerjisinin qələbəsi, yaşadığı illərin həyata ödənən cəriməsi olardı. Zatən ölüm istəyinin özü də bir ehtiras, bir növ həyat enerjisidir. Monastırda isə onun həyatıyla birlikdə ölümü də sona çatır.

Həyatla ölüm bir-birindən törəyir, qarşılıqlı şəkildə bir-birini törədir, bir yerdə yaranıb bir yerdə ölür. Alternativ yol bunların tən ortasından keçir, ortadan keçən bu xətt bioloji varlığın iki əkiz qütbünü bir-birindən ayırıb zərərsizləşdirir. Həmin yol Fabrisionu Parma monastırına aparıb çıxarır.

Monastır burada obrazdır, rəmzi mahiyyət daşıyır, ehtiraslarla qorxular, qırmızılarla qaralar, səbəblərlə nəticələr arasında girinc qalmış insan beyninin saflıq, rahatlıq, sükunət arzusunu ifadə eləyir. Monastıra çəkilmək qırmızıdan qaraya, həyatdan ölümə keçid deyil, bunları bir ortaq məxrəcə gətirib sıfırlamaqdır. Stendalın böyük oğlu Jülyen Sorelə belə bir son qismət olmamışdı.

Yalnız monastıra sığınandan sonra Fabrisionun başıbəlalı cismi ruhundan əl çəkib onu dinc buraxır. Bunun ardınca qəhrəmanın rahat, qayğısız əbədi ömrü başlanır. Dostoyevskinin "Cinayət və cəza" romanının son abzasını olduğu kimi "Parma monastırı"nın da sonluğuna calamaq olar: "Burada artıq yeni əhvalat başlayır. Bu əhvalat yavaş-yavaş yeniləşən, daxilən tamam dəyişən, yavaş-yavaş bir aləmdən başqa bir aləmə keçən, bu vaxta qədər tanımadığı, bilmədiyi yeni bir aləmlə tanış olan adamın əhvalatıdır. Bu, yeni bir hekayənin mövzusu ola bilər, bizim hekayəmiz isə bununla başa çatır".



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



# “Rəqəmsal məktəb”...



## Yeni platforma təhsilə nə vəd edir?

*Yeganə BAYRAMOVA*

Məlum olduğu kimi, ilk dəfə Bakı məktəblərində “Rəqəmsal məktəb” platforması fəaliyyətə başlayıb. Platforma təhsil sistemində müasir texnologiyaların tətbiqi ilə yanaşı, tədris və idarəetmə proseslərini təkmilləşdirmək, həmçinin təhsildə şəffaflığı artırmaq məqsədi daşıyır. Platformada “Şagird”, “Valideyn”, “Müəllim” və “Məktəb rəhbəri” üçün fərdi kabinetlər mövcuddur. Bu da hər bir istifadəçiyə qrupunun ehtiyaclarına uyğun fərdi funksionallıq təqdim edir. “Rəqəmsal məktəb” platformasından istifadə etmək üçün şagird, valideyn, müəllim və məktəb rəhbərləri istənilən cihazdan www.reqemsal.edu.az və yaxud www.digital.edu.az keçidi vasitəsilə fərdi kabinetlərinə giriş edə biləcəklər. Hələlik sınaq müddətində olan layihə müəllim, şagird, valideyn və direktorları əhatə edir.

Qeyd edək ki, “Rəqəmsal məktəb” platformasına bənzər, buna məzmun və forma cəhətdən yaxın olan variantlar dünya təhsil sistemində xeyli müddətdir ki, tətbiq olunur. Bu platformaya bənzər layihələr Avropa, Amerika, Uzaq Şərqin inkişaf etmiş ölkələrində neçə ildir ki, tətbiq edilir və ildən-ilə təkmilləşdirilir. Ölkəmizin təhsil sistemi üçün yeni olan layihə hazırda yalnız Bakı şəhərində 324 məktəbi əhatə edir, 500 mindən çox şagird bu platforma çərçivəsində iştirakçılıq imkanlarına malikdir.

**“Rəqəmsal məktəb” təhsilin keyfiyyətinə necə təsir edəcək?**

Təhsil eksperti Elçin Əfəndiyev bildirib ki, bir il müddətində bu platformanın ölkənin bütün təhsil sistemində tətbiqi mümkün olacaq: “Bu layihə, əslində, çoxdan başlanmalı idi. Çağdaş təhsilin tələbləri, çağırışları bunu xüsusi tələb edirdi. Bu, təhsildə elektronlaşmanı, innovativ yanaşmanı gücləndirən, köhnə ənənələrdən məktəb mühitini xilas edən bir platformadır. Bizdə bu layihə “Rəqəmsal məktəb” adlanır, ancaq bir çox ölkələrdə bunun adı yoxdur, sadəcə, sistemin özü var. Bu platforma Azərbaycan təhsilində yeni bir mərhələnin başlanğıcıdır”.

**Müəllimlər də faydalanacaqlar**

Ekspert qeyd edib ki, “Rəqəmsal məktəb” platforması təhsil üçbucağının hər üç tərəfini özündə əhatə edir - müəllim, şagird və valideyn. Bu sistemdə müəllimlər, şagirdlər və valideynlər də ayrı-ayrı sferalardan faydalana biləcəklər. Müəllimlər elektron jurnalı, elektron cədvəli artıq burada hazırlayacak, kağız asılılığından xilas olacaqlar. Eyni zamanda, onlar valideynlərlə virtual əlaqə qura biləcəklər. Bu, həmçinin məktəb rəhbərliyi, direktor və müavinləri ilə də ünsiyyətin təmin olunmasına imkan verir. Bundan əlavə, şagirdlərin göstəricilərini buradan yoxlamaq imkanına malik olacaqlar. Sadaladıqlarım platformadan müəllimlərin faydalana biləcəyi meyarlardır”.




Şagirdlərə gəldikdə, ekspert qeyd edib ki, onlar təhsilin ən böyük auditoriyasıdır və bu platformada şagirdlərə gündəlik lazım olan detallar, müxtəlif test və tapşırıqlar, vacib materiallar yer alacaq: “Platformada qeydiyyatdan keçən şagirdlər bu üstünlüklərdən faydalana biləcəklər. Ən əsası, şagirdlər bu platforma ilə müəllim və valideynlərinin nəzarətində olacaqlar”.

**Texniki imkanlar yaxşı olmasa...**

E.Əfəndinin fikrincə, layihə birbaşa elektron resusrslara söykəndiyindən zəruri infrastruktur - texniki imkanlar və internetin olması mütləqdir. Əgər həmin texniki infrastrukturlarda problemlər yaransa, platforma öz faydasını tam göstərə bilməz: “İnanıram ki, layihəni icra edənlər həmin məsələləri də xüsusi diqqətdə saxlayırlar və İT məsələlərində heç bir problem olmayacaq. Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi bir çox layihələrdə, məsələn, şagirdlərin yerdəyişməsi, elektron qəbul və s. proseslər zamanı sistem bəzən yüklənir, problem yaşanır, ancaq sonra hər biri aradan qaldırılıb. Ona görə də, Nazirliyin bu istiqamətdə əldə etdiyi geniş təcrübəsi inam yaradır ki, “Rəqəmsal məktəb” layihəsinin texniki təchizatı normal işləyəcək.

**Təhsilin keyfiyyətinə təsiri böyük olacaq**

Ekspertin sözlərinə görə, “Rəqəmsal məktəb” platformasının təhsil üçün müsbət məqamları çoxdur: “Bu platforma vasitəsi ilə valideynlər övladlarını daha rahat izləyə biləcəklər. Onların təhsil göstəriciləri, davranışlarını rahat izləmə imkanı qazanacaqlar. Eyni zamanda, övladlarının cədvəlləri rəqəmsal platformada öz əksini tapmış olacaq. Öz fikirlərini rahat şəkildə məktəb rəhbərliyinə bildirə biləcəklər. O cümlədən, müəllim, valideyn və məktəb kommunikasiyasının düzgün qurulmasına bu platforma müsbət mənada təsir göstərək. Bundan başqa, təhsil keyfiyyətinə böyük təsirləri olacaq. Valideyn istənilən halda həm sayt vasitəsilə, həm tətbiq vasitəsilə istənilən halda övladının təhsil göstəricilərinə nəzarət etdiyi zaman müəyyən boşluqları görərsə, övladının təhsil göstəricilərinin yaxşı olmasına çalışacaq. Əlavə olaraq, valideynin məktəbdə gördüyü hansısa neqativ bir məsələ varsa, bunu məktəb rəhbərliyinə daha tez çatdıra biləcək. O cümlədən problemləri Nazirliyə çatdıra biləcək. Platforma üzərindən valideyn və müəllimin fikir mübadiləsi aparma imkanı olacaq, həmçinin, şagirdin elektron dərsliklərdən, testlərdən istifadəsi yaxşılaşacaq. Nəticədə bütün bunlar da ümumilikdə təhsil göstəricilərinə, təhsil keyfiyyətinə müsbət təsir edəcək”.

# Diasporumuzun gücü!

*Yeganə BAYRAMOVA*

Qloballaşan dünyada xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri diaspor və lobbi təşkilatlarının rolunu artırmaqdadır. Hər bir dövlətin gücü, qüdrəti onun xaricdə formalaşdırdığı diaspor və lobbiçilik fəaliyyəti, həmçinin, millətinin həmrəyliyi ilə müəyyən edilir. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vətənlə əlaqələrinin daha da möhkəmləndirilməsi, icmalar, cəmiyyət və birliklərarası fəaliyyətin genişləndirilməsi, müntəzəmliyin təmin olunması vacib və təxirəsalınmaz məsələlər kimi diskusiya predmetidir.

Ümummilli lider Heydər Əliyevin 23 may 2001-ci il tarixində




## Uğurlu fəaliyyət davam edir...

“Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında” imzaladığı sərəncamlar Azərbaycanda disapor quruculuğunda mühüm rol oynayıb. Bu sərəncamdan bir müddət sonra - noyabr ayının 9-u və 10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Tariximizə böyük bir prosesin başlanğıcı kimi daxil olmuş ilk qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etdi.

Ulu öndər Heydər Əliyevin 2002-ci il iyulun 5-də imzaladığı “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında”kı fərmanı ilə lobbiçiliyin mütəşəkkilləşmə dövrü başlandı. Komitənin yaradılmasında əsas məqsəd xaricdə yaşayan həmvətənlərlə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi idi. İndi diaspor anlayışı beynəlxalq münasibətlərin vacib elementinə çevrilməkdədir. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində qarşıya yeni vəzifələr qoymaqdadır. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirir.

İstər lobbiçilik, istərsə də onun hərəkətverici qüvvəsi olan diasporun əsasını üzvlərin, yəni bütün dünyada yaşayan azərbaycanlıların milli birliyi təşkil edir. Azərbaycan hökuməti buna daim böyük önəm verir. Hələ 1991-ci il dekabrın 16-da Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən, məsələnin əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bundan sonra hər il 31 dekabr həmrəylik günü kimi bütün dünya azərbaycanlıları tərəfindən böyük coşqu ilə qeyd olunmağa başlandı.

**Güclü diasporumuz formalaşıb**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan “Diaspor Press” informasiya mərkəzinin rəhbəri Toğrul Allahverdili bildirib ki, hazırda Azərbaycan diasporu xaricdə istər keçmiş postsovet məkanında, istər Avropada, istərsə də okeanın o tayında yetərincə formalaşa bilib. T.Allahverdili qeyd edib ki, Diaspor Komitəsinin işini necə qurmağından asılı olmayaraq, xaricdəki soydaşlarımız öz içlərindəki vətən sevgisi ilə fəaliyyət göstərməsələr nə olur olsun güclü diaspora yaradıla bilməz: “Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə 90-cı illərin sonunda Heydər Əliyevin xüsusi tapşırığı ilə yaradılan “Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi” olaraq fəaliyyətə başladı. Hətta son illər Ərəb ölkələrində də Azərbaycan Diasporasının daha güclü, daha effektli çalışdığının şahidi olmuşuq. Şükürlər olsun ki, həm Diaspora üzrə Dövlət Komitəsinin fəaliyyəti, həm xaricdə yaşayan soydaşlarımızın illərdir çəkdiyi əziyyətlər öz bəhrəsini verib. Azərbaycan güclü diaspor formalaşdırıb. Diaspor üzrə Dövlət Komitəsi bir neçə il bundan öncə olan dəyişikliklər nəticəsində Diaspor Komitəsinə bir yeni imic və nəfəs gətirdi”.

**Azərbaycan diasporu vəhdət halında birləşə bilib**

T.Allahverdilinin sözlərinə görə, Azərbaycan diasporu illər ərzində xaricdə yetərincə formalaşıb və aktivləşə bilib: “Amma təbii ki, çatışmazlıqlar var. Çünki bəziləri bizim mədəniyyətimizi başqa cür anlayırlar. Elə bilirlər Azərbaycan mədəniyyətinin təbliği Azərbaycandan müğənni aparıb konsert keçirtmək və ya bayramdan-bayrama masa ətrafına yığılıb bayram şənliyi keçirtməkdir. Amma bizim Azərbaycan xalqının milli-mənəvi dəyərlərini xaricdə yetərincə, akademik səviyyədə təbliğ edən həqiqətən, güclü diaspor təşkilatlarımız var. Onlar universitetlərdə, beyin mərkəzlərində akademik səviyyədə tədbirlər təşkil edirlər. Hətta, Azərbaycanda elə qeyri-hökumət təşkilatları var ki, Azərbaycan mədəniyyəti ilə bağlı xaricdə keçirdikləri tədbirlər bəzi diaspor təşkilatlarının keçirdikləri tədbirlərdən daha perspektivlidir. Diaspor birliyi ilə bağlı xaricdə yaşayan azərbaycanlıların fəaliyyətinə gəldikdə isə biz bunun ən böyük nəticəsini postpandemiya dövründə və ən əsası Vətən müharibəsi zamanı şahidi olduq. Xaricdə yaşayan azərbaycanlıların, özünə diaspor nümayəndəsi deyən hər bir fərdin ürəyi Azərbaycanla döyünürdü. Xaricdə yaşayan azərbaycanlıların Vətən müharibəsi savaşında xalqımıza dəstək nümayiş etdirməsi, Ali Baş Komandana məktublar, videomüraciətlər ünvanlanması, Vətən savaşında iştiraklarını xahiş etmələri bunu deməyə əsas verir ki, Azərbaycan diasporu bir vəhdət halında birləşə bilib”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır

## İdman

### U-17 millimiz Belarus İnkişaf Kubokunda iştirak edəcək

Azərbaycanın U-17 millisi fevralın 14-dən 22-dək Belarusun paytaxtı Minskdə gənclər arasında İnkişaf Kuboku turnirində iştirak edəcək. Millimiz B qrupunda Rusiya, İran və Qazaxıstanın müvafiq yaş qrupundan ibarət komandası ilə mübarizə aparacaq. A qrupunda isə Belarus, Özbəkistan, Tacikistan yığmaları və Braziliyanın “BSA Akademiyası” komandası çıxış edəcək. Qrup mərhələsinin oyunlarından sonra fevralın 21-də həlledici görüşlər təşkil olunacaq. Qrup birinciləri çempionluq, ikinciləri üçüncü yer, üçüncüləri beşinci yer, dördüncüləri isə yeddinci yer uğrunda qarşılaşacaqlar.

### Stolüstü tennisçilərimiz Xorvatiyada bürünc medal qazanıblar



Azərbaycanın stolüstü tennisçiləri Xorvatiyanın Osiyek şəhərində təşkil olunan “Europe Youth Series” turnirində bürünc medal qazanıblar.

Bu barədə Azərbaycan Stolüstü Tennis Federasiyasının mətbuat xidməti məlumat yayıb. Onur Quluzadə ilə Tunar Bağırov qoşa mübarizədə fəxri kürsünün üçüncü pilləsinə qalxıb. Onlar baş məşqçi Mixail Timofeyev və məşqçi Səbinə Əzizlinin rəhbərliyi ilə yarışda iştirak ediblər.

### “Adana Demirspor”un prezidenti istefa verib



Super Liqa təmsilçilərindən “Adana Demirspor”un prezidenti Bedirhan Durak dünən axşam “Qalatasaray”la səfər matçında meydandan çəkildikdən sonra istefa verdiyini açıqlayıb.“Əziz “Adana Dəmirspor” azarkeşləri, oktyabr ayından etibarən üzərimə götürdüyüm vəzifəmi layiqincə yerinə yetirmək üçün gecə-gündüz çalışdım, cibimdən, vaxtımdan və sağlamlığımdan verdim. Mən həmişə klubumun xeyrinə olan dəstəyi göstərmişəm. Belə bir həddə çatdığımız üçün üzgünəm. Girdiyimiz burulğandan çıxmaq mümkün deyil. İlk növbədə klubum, daha sonra isə ailəm, sevdiklərim və sağlamlığım üçün bu vəzifədən istefa verirəm”.

Qeyd edək ki, Türkiyə Super Liqasının XXIII turunda “Adana Demirspor” “Qalatasaray”la oyunda meydandan çəkilib. Klub meydan sahiblərinin lehinə verilən penaltiyə görə bu addımı atıb.

### Ronaldo Səudiyyə Ərəbistanında qalacaq



Ulduz futbolçu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubu ilə yeni müqavilə imzalayıb. Bu barədə insayder Nikolo Şira sosial şəbəkədə məlumat verib. Tərəflər arasında müqavilə 2026-cı ilə qədər uzadılıb. 40 yaşlı hücumçu 2022-ci ilin dekabrından Səudiyyə Ərəbistanı klubunda çıxış edir.

Kriştiano bu mövsüm “Əl-Nəsr”in heyətində 26 matçda iştirak edib. Portuqaliyalı mərkəz hücumçusu 24 qol vurub və 4 məhsuldar ötürmə edib.

Səudiyyə Ərəbistanına transfer olunmazdan əvvəl Ronaldo “Real Madrid”, “Mançester Yunayted”, “Yuventus” və “Sportinq”də çıxış edib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4473
Sifariş: 343
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova